QARABAĞ AZƏRBAYCANDIR!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 118 (6318) 7 iyul 2021-ci il Qiyməti 40 qəpik

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.


## YAP Çin Kommunist Partiyasının yaranmasının 100 illiyi münasibətilə keçirilən sammitdə təmsil olunub

İyulun 6-da Çin Kommunist Partiyasının yaranmasının 100 illiyi münasibətilə Çin Kommunist Partiyası və Dünya Siyasi Partiyalarının videokonfrans...




Bax 2

## Ermənistanın təcavüzü nəticəsində əhalinin əmlakına dəymiş ziyanla bağlı 5,2 milyon manat ayrılıb



Bax 2

## Baş nazir Əli Əsədov Rusiyanın səhiyyə naziri Mixail Muraşko ilə görüşüb



Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov iyulun 6-da Rusiya Federasiyasının səhiyyə naziri Mixail Muraşko ilə görüşüb. Nazirlər Kabinetinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə...

Bax 2

## XİN: Azərbaycan BMT missiyasını qəbul etməyə hazırdır



Azərbaycan tərəfi və BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının (BMTQAK) arasında aparılmış müzakirələr nəticəsində BMTQAK-ın ölkəmizin münaqişənin təsirinə məruz qalmış ərazilərinə missiyasının həyata keçirilməsi ilə bağlı razılıq əldə...

Bax 5

## YAP Gənclər Birliyi Ermənistan tərəfindən Oxçuçayda suyun çirkləndirilməsi ilə əlaqədar bəyanat yayıb




Bax 5

## DİQQƏT: Əlillik bu kateqoriyalara əsasən təyin olunacaq!

Bax 11

"Tətbiq olunacaq yeni meyarlarla əlillik artıq 3 dərəcə üzrə məhdud çərçivədə deyil, orqanizmin funksiyalarının itirilməsi faizinin müəyyən...



## Kraliça II Elizabet "Xarı bülbül"ə baş çəkdi, Qarabağ atlarına tamaşa etdi

Bax 4



Böyük Britaniyanın paytaxtı London şəhərində 1-4 iyul tarixlərində keçirilən ənənəvi "Royal Windsor Horse Show"...

## Sülhməramlılar Xankəndidən çıxır

SƏS TV - CANLI

Xankəndindən sülhməramlılar çıxır? Növbəti təxribat Ermənistanın sonu ola bilər




## Rusiyalı ekspert: İrəvan özünəqəsd edir



Bax 13

## Ermənistanda səslənən sual. Erməni apostol kilsəsi nüfuzunu itirir



Bax 4

## Karyera, yoxsa ailə?



Bax 10

## Dava yorğan davasıdır? - Mediamızdakı reallıq



Bax 15

## Braziliya finalda!



Bax 16

# Ermənistanın təcavüzü nəticəsində əhalinin əmlakına dəymiş ziyanla bağlı 5,2 milyon manat ayrılıb



**Prezident İlham Əliyev 2020-ci il sentyabrın 27-dən başlayaraq Ermənistan Respublikası silahlı qüvvələrinin Azərbaycan Respublikasının ərazisinə təcavüzü nəticəsində mülki əhalinin əmlakına dəymiş ziyanla bağlı maddi yardım ödənilməsinə dair əlavə tədbirlər haqqında sərəncam imzalayıb.**

Sərəncamda qeyd edilir ki, 2020-ci il sentyabrın 27-dən başlayaraq Ermənistan Respublikası silahlı qüvvələrinin Azərbaycan Respublikasının ərazisinə təcavüzü nəticəsində mülki əhalinin əmlakına dəymiş ziyanla bağlı maddi yardım ödənilməsi məqsədilə Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə 5 200 000 manat vəsait ayrılsın. Nazirlər Kabinetinə tapşırılır ki, sərəncamdan irəli gələn məsələləri həll etsin.

# ATƏT Parlament Assambleyasının yay sessiyası başa çatıb



**İyulun 6-da Vyanada ATƏT Parlament Assambleyasının yay sessiyasının plenar iclası keçirilib. AZƏRTAC xəbər verir ki, iclasda "Təxirəsalınmaz məsələlər" çərçivəsində ABŞ-ın təklif etdiyi "ATƏT məkanında nifrət, dözümsüzlük, şiddət və diskriminasiyanın artmasına qarşı" qətnamə layihəsi səsverməyə çıxarılıb.**

Səsvermədən əvvəl qətnamə layihəsini təklif edən ABŞ senatoru Bencamin Kardin Azərbaycan və Türkiyə nümayəndə heyətlərinə sənədin təkmil tərtibatına verdikləri töhfəyə görə təşəkkür edib. O bildirib ki, yeni düzəlişdən sonra sənəd islamofobiya və onun təzahür formalarına qarşı mübarizəni də ehtiva edir. Eyni zamanda, qeyd edilib ki, XX əsrin əvvəllərində tarixi ədalətsizlik kimi qiymətləndirilən hadisələr siyahısında soyqırımı anlayışı (açıq yazılmasa da, qondarma erməni soyqırımı nəzərdə tutulur) Azərbaycanın təklifi ilə qətnamədən çıxarılıb.

Səsvermə zamanı qətnamə deputatların əksər səs çoxluğu ilə qəbul olunub.

Qətnamə qəbul olunduqdan sonra Azay Quliyev Azərbaycanın və Türkiyənin düzəlişlərini qəbul etdiyinə və konstruktiv əməkdaşlığa görə senatora təşəkkürünü bildirib.

Bundan başqa, Azay Quliyev ATƏT-in müşahidə missiyasının rəhbəri və xüsusi koordinatoru kimi bu ilin aprelində Albaniyada keçirilən parlament seçkiləri haqqında hesabat məruzəsi ilə çıxış edib, seçki prosesi zamanı missiyanın müəyyən etdiyi müsbət və mənfi məqamlar haqqında Assambleyanı məlumatlandırıb.

ATƏT Parlament Assambleyasının yay sessiyası qurumun prezidentini, vitse-prezidentlərini və komitə sədrlərini seçdikdən sonra işini başa çatdırıb. İsveçdən olan deputat Marqareta Sedelfert cəmi 2 səs fərqi ilə, yeni 128 deputatın dəstəyini qazanaraq norveçli rəqibi Kari Henriksenə qalib gəlib və ATƏT Parlament Assambleyasının prezidenti seçilib.

# Baş nazir Əli Əsədov Rusiyanın səhiyyə naziri Mixail Muraşko ilə görüşüb



Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov iyulun 6-da Rusiya Federasiyasının səhiyyə naziri Mixail Muraşko ilə görüşüb. Nazirlər Kabinetinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə səhiyyə sahəsində əməkdaşlıq və tibbi kadrların hazırlığı sahəsində əməkdaşlıq daxil olmaqla, Azərbaycan-Rusiya münasibətlərinin bütün istiqamətlər üzrə uğurlu inkişafı məmnunluqla qeyd edilib. Həmçinin koronavirus pandemiyasına qarşı mübarizə məqsədilə hər iki ölkədə görülən tədbirlərə dair fikir mübadiləsi aparılıb.

# YAP Çin Kommunist Partiyasının yaranmasının 100 illiyi münasibətilə keçirilən sammitdə təmsil olunub

**İyulun 6-da Çin Kommunist Partiyasının yaranmasının 100 illiyi münasibətilə Çin Kommunist Partiyası və Dünya Siyasi Partiyalarının videokonfrans formatında sammiti keçirilib.**




"Xalqın xoşbəxtliyi naminə: siyasi partiyaların məsuliyyəti" mövzusunda keçirilən sammitdə xalqların rifahının və ölkələrin inkişafının təmin olunmasında siyasi partiyaların rolundan bəhs olunub. Çin Xalq Respublikasının Sədri, Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin Baş katibi Si Cinpin tədbirdə iştirak edib və nitq söyləyib. Sammitdə, həmçinin müxtəlif ölkələrin aparıcı siyasi partiyalarının rəhbər şəxsləri çıxış ediblər.




YAP Sədrinin müavini Əli Əhmədovun mövzu ilə əlaqədar videoçıxışı da Sammitin onlayn platformasında yerləşdirilib.



Onlayn sammitdə YAP-ın Mərkəzi Aparatı, Veteranlar Şurası və Gənclər Birliyinin 80-dən artıq nümayəndəsi iştirak edib. Çin Xalq Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri xanım Qo Min də Sammitə qoşulub.



Sammit müddətində fəaliyyət göstərən onlayn platformada siyasi partiya liderlərinin mövzuya dair video və yazılı şərhləri yerləşdirilib.

Qeyd edək ki, Yeni Azərbaycan Partiyası ilə Çin Kommunist Partiyası arasında səmərəli, qarşılıqlı faydalı və çoxşaxəli əlaqələr mövcuddur. Yüksək səviyyəli əlaqələr fonunda hakim partiyalar arasında qarşılıqlı səfərlərin təşkil olunması və təcrübə mübadilələrinin aparılması münasibətlərin gələcək inkişafı baxımından böyük önəm daşıyır. 2019-cu ildə Çinin paytaxtı Pekində YAP və Çin Kommunist Partiyası arasında əlaqələrin qurulmasının 20 illiyi münasibətilə konfrans keçirilib. Yeni Azərbaycan Partiyası ilə Çin Kommunist Partiyası arasındakı əməkdaşlığın dərinləşdirilməsi iki ölkə münasibətlərinin daha da möhkəmlənməsinə mühüm töhfə verəcək. Tədbir çərçivəsində YAP Mərkəzi Aparatının foyesində Çin Xalq Respublikasının ölkəmizdəki səfirliyinin təşkilatçılığı ilə Çin Kommunist Partiyasının yaranmasının 100 illiyi münasibətilə sərgi keçirilib.

# Azərbaycan Vatikan əlaqələri dostluq və qardaşlığa söykənir

**Heydər Əliyev Fondu fəaliyyətə başladığı zamandan sərhəd tanımadan böyük və əhəmiyyətli layihələri həyata keçirərək humanizmin, xeyriyyəçiliyin ünvanı olduğunu dünyaya bir mesaj olaraq çatdırmışdı. Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva tərəfindən reallaşan layihələr dövlətlərarası münasibətlərinin inkişaf etdirilməsi və möhkəmləndirilməsinə öz töhfəsini verir.**




Humanist, xeyriyyəçi layihələrin təşəbbüskarı kimi nüfuz qazanan Mehriban Əliyeva çoxşaxəli fəaliyyəti, genişmiqyaslı layihələri ilə beynəlxalq aləmdə nüfuza sahib olaraq, təkcə Azərbaycanda deyil, bir sıra məkanlarda geniş layihələr həyata keçirir. Azərbaycanın, eləcə də, ümumdünya mədəni irsinin qorunmasında "Azərbaycan - tolerantlığın ünvanı" layihəsi maraq doğuran və əhəmiyyətli tədbirlər sırasındadır. Layihə çərçivəsində müsəlman məscidləri ilə yanaşı, xristian kilsəsi də bərpa edilib, Azərbaycanda yaşayan yəhudi uşaqları üçün məktəb və mədəni





mərkəz inşa olunub. Heydər Əliyev Fondu tərəfindən Bakının Mərdəkan qəsəbəsində Pir Həsən ziyarətgahı, Heydər Cümə məscidi, Binə qəsəbəsindəki Möhsün Səlim məscidi, İmam Rza məscidi, Buzovna qəsəbəsindəki Cümə məscidi və digər məscid və ziyarətgahlarda əsaslı təmir və yenidənqurma işləri aparılmışdır. Gəncədəki Həzrəti Zeynəb məscidi yenidən qurulmuşdur.

Dünya ölkələri ilə münasibətləri dostluq, qarşılıqlı maraq, hörmət əsasında quran Fond tərəfindən Bakıdakı Müqəddəs Bakirə Məryəm kilsəsində təmir-bərpa işləri aparılmış, kilsənin asma tavanı bədii şüşələrlə əvəz edilmiş, məbədin fasadı dəyişdirilmişdir. "Tolerantlığın ünvanı - Azərbaycan" layihəsi çərçivəsində Bakıda yaşayan yəhudi uşaqları üçün Xabad-Or-Avner Təhsil Mərkəzi inşa olunub. Bütün bunlar Azərbaycanda tolerantlığın, dözümlülüyün, dünya mədəniyyətlərinin rəngarəngliyinə hörmətin qədim və möhkəm kökləri olduğunu özündə ehtiva edir.Azərbaycanda bütün dövrlərdə, ictimai-siyasi quruluşdan asılı olmayaraq, müxtəlif dillərdə danışan, müxtəlif dinləri təmsil edən insanların sülh, əmin-amanlıq və qarşılıqlı hörmət şəraitində bir ailə kimi yaşadığını çıxışlarının birində bildirən Mehriban xanım Əliyeva "Bu gün də çoxkonfessiyalı və çoxmillətli Azərbaycan bu ənənələrə sadiqdir və bu, ən böyük sərvətlərdən biridir" - deyib.

Fondun həyata keçirdiyi layihələr təkcə Azərbaycanı əhatə etmir, onun miqyası geniş və şaxəlidir. Strasburq kafedralının XIV əsrə aid olan beş pəncərəsi bərpa edilmişdir. 1320-1340-cı illərdə salınmış vitraj şüşələrinin üzərində Müqəddəs Məryəmin və İsa peyğəmbərin həyatı əks olunub. Heydər Əliyev Fondu Fransanın müxtəlif regionlarındakı 20-dək kilsənin bərpasına maliyyə yardımı ayırmışdır. Rusiya Federasiyasının Həştərxan şəhərində, Müqəddəs Vladimir kilsəsinin qarşısındakı meydanda Knyaz Vladimirin abidəsi ucaldılmışdır. Bütün bu və digər layihələr Azərbaycan ilə dünya dövlətləri arasında əlaqələrin möhkəmlənməsinə öz töhfəsini verib. Təbii ki, xalqlar və dövlətlərarası əlaqələrin qurulmasında Heydər Əliyev Fondunun da yeri və rolu var. Rusiya, Gürcüstan, Fransa kimi dövlətlər mövcud olan əlaqələrin daha genişlənməsində Heydər Əliyev Fondunun həyata keçirdiyi layihələr öz müsbət nəticəsini verib. Mehriban xanım Əliyevanın müsahibələrinin birində dediyi kimi, dünyəvi müsəlman ölkəsi olan Azərbaycan yalnız xristian aləminə aid müqəddəs yerlərin və tarixi-mədəni abidələrin bərpasında iştirak etmir, eyni zamanda, ümumdünya əhəmiyyətli abidələri bərpa edir. Bu, Fondun həyata keçirdiyi mühüm siyasətdir. Bu gün Azərbaycan ilə Vatikan arasında salınan körpünün yeni bir mərhələ təşkil etdiyini də qeyd etməliyik. Azərbaycan və Vatikan arasında münasibətlər bu gün yeni müstəvidədir.



Heydər Əliyev Fondunun dəstəyi ilə Müqəddəs Marçellinio və Pietro katakombalarının bərpa edilməsi böyük hadisəyə çevrildi və Vatikan rəsmiləri tərəfindən Fondun həyata keçirmiş olduğu layihə öz yüksək qiymətini aldı. Heydər Əliyev Fondunun Vatikanda həyata keçirdiyi tədbirlər təkcə katakombaların bərpası ilə məhdudlaşmır. Vatikan Apostol kitabxanasında olan Azərbaycana aid əlyazmaların bərpasını da qeyd etməliyik. Xatırladaq ki, Heydər Əliyev Fondunun dəstəyi ilə Müqəddəs Sebastian katakombalarının bərpası işlərinə 2016-cı ildə başlanılıb. 2018-ci il sentyabrın 26-da Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva katakombaların açılışı mərasimində iştirak edib. Muzeydə Heydər Əliyev Fondunun dəstəyi ilə restavrasiya olunmuş 150 sarkofaq və ya onların fraqmentlərindən ibarət eksponatlar nümayiş olunur. Yer altında dörd mərtəbədən ibarət katakombada isə Fondun dəstəyi ilə restavrasiya olunmuş, eramızın IV əsrinə aid sarkofaq və barelyeflər yerləşir. İncildən səhnələrin yer aldığı barelyef erkən xristianlıq dövrü üçün mühüm abidələrdən sayılır.

Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə Vatikanda bu istiqamətdə əməkdaşlığın növbəti mərhələsinin icrasına başlanılıb. Belə ki, Heydər Əliyev Fondu və Müqəddəs Taxt-Tacın Müqəddəs Arxeologiya Şurası arasında Müqəddəs Komodilya katakombalarının bərpasına dair yeni əməkdaşlıq müqaviləsi imzalanıb. Bu gələcək əməkdaşlıq üçün əhəmiyyətli sənəddir. Təbii ki, əməkdaşlıq razılaşması Roma şəhərindəki katakombalardan birinin ictimaiyyət üçün açılması və bu yolla Roma şəhərinin mədəni zənginliyinə daha bir incinin əlavə olunmasına səbəb olacaq. 2025-ci ildə Roma şəhərində Roma-katolik kilsəsi üçün xüsusi əhəmiyyət daşıyan və hər 25 ildən bir qeyd edilən "Müqəddəs il" yubiley tədbirləri keçiriləcək və "əbədi şəhər"ə dünyanın hər tərəfindən turist və zəvvarlar axışacaq. Heydər Əliyev Fondu dünya mədəni, tarixi və dini irsinin qorunması, mədəniyyətlər və dinlərarası əlaqələrin inkişafına xidmət edən növbəti layihəsinə imza atıb. Vatikan ilə Azərbaycan arasında əlaqələr ölkəmizin dövlətlərarası qurduğu dostluq və qarşılıqlı əməkdaşlıq münasibətlərinin göstəricisidir. Tarixi İpək Yolunda yerləşən Azərbaycan multikultural bir dövlət kimi dünyada tanınır və ayrı-ayrı millətlərin və konfessiyaların nümayəndələrinin sülh, əmin-amanlıq, qarşılıqlı anlaşma və dialoq şəraitində yaşadığı diyardır. Ökəmizdə hökm sürən mühit multikulturalizmi alternativi olmayan həyat tərzinə çevirib. Bütün dünyada, eləcə də, islam dünyasında böyük hörmətə, nüfuza malik olan Azərbaycan birgəyaşayışa, qarşılıqlı əməkdaşlığa töhfələrini verir, prinsipial və ədalətli mövqeyi ilə seçilir. Dostluğun möhkəmlənməsinə, insani dəyərlərə, sülh və əmin-amanlığa üstünlük verir. Bu dəyərlər insanları sülhə və dostluğa çağırır.

***Zümrüd BAYRAMOVA***

# Kraliça II Elizabet “Xarı bülbül”ə baş çəkdi, Qarabağ atlarına tamaşa etdi

**Böyük Britaniyanın paytaxtı London şəhərində 1-4 iyul tarixlərində keçirilən ənənəvi “Royal Windsor Horse Show” - “Vindzor Kral Atçılıq Şousu” başa çatıb. Dövlət Sərhəd Xidmətinin mətbuat xidmətinin yaydığı məlumatda deyilir ki, II Elizabetin və kral ailəsinin digər üzvlərinin canlı tamaşa etdikləri tədbirlərdə “Xarı-Bülbül” adlı xüsusi şou-kompozisiya hər gün təqdim olunub.**

Vətən Müharibəsində əldə olunmuş möhtəşəm Zəfərə və şəhidlərimizin müqəddəs xatirəsinə həsr olunmuş bu kompozisiyada Dövlət Sərhəd Xidmətinin süvarilər qrupunun Qarabağ atları üzərində nümayiş etdirdikləri igidlik və cəsurluq hərəkətləri, Azərbaycan milli geyimində arenaya çıxan “Sərhədçi” rəqs ansamblının möhtəşəm çıxışları, süvarilərimizin başları üzərində Azərbaycan və Böyük Britaniyanın dövlət bayraqlarını dalğalandırması, Azərbaycan milli rəqsi ilə atsürmə elementlərinin sintezi böyük rəğbətlə qarşılanmış, izləyicilərin qəlbində Qarabağ atlarının coşqusunu alovlandırıb.



Məşhur “Xudayar təsnifi”nin, Tofiq Quliyevin “Qaytağı”sının, Polad Bülbüloğlunun “Eşq və ölüm” baletinin müsiqisinin sədaları altında təmsilçilərimizin bənzərsiz çıxışları Azərbaycanın, o cümlədən də işğaldan azad olunmuş Qarabağın və ətraf rayonların böyük ekranlarda nümayiş etdirilən füsunkar görüntüləri ilə müşayiət olunub.

Heydər Əliyev Fondunun dəstəyi və Azərbaycanın Atçılıq Federasiyasının təşkilatçılığı ilə hazırlanmış bu proqramda xalqımızın zəngin mədəniyyəti, qəhrəmanlığı, cəsarəti və qorxmazlığı Qarabağ atlarının bənzərsiz gözəlliyi, milli musiqimizin və rəqslərimizin dili ilə ifadə edilib. “Xarı-Bülbül” şou kompozisiyasını xüsusi maraqla izləmiş Birləşmiş Krallığın Kraliçası Ülyahəzrət II Elizabet nümayəndə heyəti ilə görüşüb, xatirə fotoşəkili çəkdirib, Azərbaycan təmsilçilərinin çıxışını möhtəşəm adlandırıb.

Bu beynəlxalq atçılıq tədbirinin artıq ayrılmaz hissəsi sayılan Azərbaycan musiqisi, milli rəqslərimiz və xüsusilə də milli at cinsimiz olan Qarabağ atlarının valehedici performansı hər zaman olduğu kimi Böyük Britaniya aristokratiyasının və məşhurlarının da böyük marağına səbəb olub, qonaqlar Azərbaycan nümayəndə heyətinə minnətdarlıqlarını bildiriblər.

Azərbaycan nümayəndələrinin çıxışları canlı yayımda nümayiş etdirilib, atçılıq həvəskarı olan sosial şəbəkə istifadəçilərinin və ixtisaslaşmış informasiya resurslarının mövzusuna çevrilib. Süvarilərimizin müxtəlif ekstremal hərəkətləri, xüsusilə tədbirin baş qəhrəmanları olan Qarabağ atlarının məharətli çıxışları Böyük Britaniyanın nüfuzlu saytları tərəfindən geniş işıqlandırılıb.

# Ermənistanda səslənən sual. Erməni apostol kilsəsi nüfuzunu itirir

**Erməni kimliyinin əsas göstəricilərindən biri apostol kilsəsidir və lap yaxın tarixədək dünyanın harasında yaşamasından asılı olmayaraq, bu, erməni toplumu üçün mübahisəsiz qəbul edilən fakt olub. AZƏRTAC həmin kilsənin son zamanlar erməni ictimaiyyəti daxilində nüfuzunu itirməsi fonunda tarixdə və bu günümüzdə yaşananlara nəzər salır.**

Erməni kilsə tarixi iddia edir ki, “Ermənistan dünyada xristianlığı dövlət dini olaraq qəbul edən” ilk ölkədir, lakin həmin “tarix” o “dövlətin” fiziki və yaxud siyasi xəritəsinin hüdudlarını göstərməyi çox vaxt “unudur”. Gerçəklik isə odur ki, bununla belə, erməni apostol kilsəsi erməni toplumunun həyatında ən mühüm institutlardan biri, bəlkə də birincisinə çevrilə bilib. Hər halda, yaxın üç ilə qədər bu cür görünürdü.

Nəticə olaraq, erməni kimliyi yaddaşına həkk etdirilən xəyali “ermənistan dövləti” ilə deyil, kilsədövlət missiyasını yerinə yetirən real bir teokratik dövlətlə baş-başa qalıb. Həmin “dövlətin” başlıca “qayğısı” isə “zavallı erməni xalqının” gələcəyi naminə kilsənin vardövlətini artırmaq olub. Bizans imperiyası və yaxud Osmanlı sultanlığına, Ağqoyunlu və ya Səfəvi hökmdarlarına münasibətdə kilsənin əsas hədəfləri belə idi. Cənubi Qafqazın istedadlı, ancaq “sahibsiz” aborigen əhalisini “etibarsız millət” kimi əvvəl bizanslıların, daha sonra Rusiya imperatorlarının gözündən salmaqda erməni kilsəsinin niyyəti həmin hədəflərlə sərhədlənirdi: istənilən yolla alban kilsəsinin varidatına və ucsuz-bucaqsız torpaqlarına yiyələnmək. Kilsənin iddiaları Cənubi Qafqazda təmin edildikdən sonra onun nəzərləri Anadolu istiqamətinə yönəldi.

XIX əsrin sonlarında Osmanlı İmperiyası üçün hazırlanan “Balkan tələsi”nin istənilən vaxt açılmasını görmək üçün nə iti ağıl, nə də iti göz lazım olmayanda erməni apostol kilsəsi bütün cinahlar üzrə hücuma hazır vəziyyət ala bilmişdi. Bu ərəfədə “siyasi partiya” kimi yaransa da, siyasi platformasına zərbə qüvvələrini “hərbi hazırlıq” məsələləri kimi çıxarmaqdan çəkinməyən “Armenaqan”ın maliyyələşdirilməsi erməni kilsəsinin, şəxsən katolikos I Makarın (Ter-Petrosyan) əsas qayğılarından birinə çevrildi. Sonralar meydana sıxan “Hnçaq”, “Daşnaksütyun”, elə ötən əsrin 70-80-ci illərində “Krunq”un yaradılması da “erməni xalqına qarşı gözlənilən dövlət terroruna qarşı” kilsənin “qabaqlayıcı tədbirlərindən” sayıla bilər.



I Dünya müharibəsi ərəfəsində Tiflisə səfər edən II Nikolayın görüşünə gələn katolikos V Gevorq (Tpxisetsi Surenyan) imperatoru inandırırdı ki, Türkiyədəki ermənilər müharibə başlayacağı anda 100 min nizami ordu birləşməsi yaradaraq Rusiyanın yanında dayanmağa hazırdır. Bu vəddən sonra Dro, Nijde, Andronik və digərlərinin rəhbərliyi ilə həmin nizami ordu hissələri təşkil edildi və sonralar, Lozanna Konfransında “erməni mühacir hökuməti” I Dünya müharibəsində tərəf olduğunu ortaya qoymağa çalışdı. Müharibənin getdiyi vaxtlarda Şərqi Anadoluda ən amansız və qəddar ölümə məhkum edilən yüz minlərlə türkün və kürdün, dinc kəndlilərin ölüm hökmü kilsədən verilsə də, icraçılar həmin “tərəf” idi.

O illərdə Türkiyə ərazisində erməni silahlı dəstələrinin yaradılmasının ideoloji və maddi qaynağı birbaşa erməni apostol kilsəsindən gəlirdi.

1988-ci ildə üfüqdə SSRİ-nin süqutu göründüyü vaxtlarda Ermənistanda Azərbaycanın ərazi bütövlüyünə qarşı məkrli planlar həmin ünvanda cızılırdı. Tarixi vətənlərində yaşayan sonuncu 200 min azərbaycanlının ölüm qorxusu altında Ermənistandan çıxarılması metodikasının müəllifləri də eyni ünvanda əyləşmişdilər.

Bu gün Ermənistanda etiraf edənlər var ki, Azərbaycanın işğal olunan ərazilərində azərbaycanlılara qarşı tətbiq edilən ağlagəlməz işgəncə əməliyyatlarının çoxu, yəqin elə Xocalı soyqırımı da erməni kilsəsinin “beyin məhsulu”dur. Həmin “məhsulun” fəlsəfəsinə gəlincə, 2012-ci ildə “Exo Moskvı” radiostansiyasına müsahibəsində Aleksey Venediktovun “O ki qaldı, Xocalıya, orada baş verənləri xatırlamaq belə, dəhşətdir...” sualına o zamankı Ermənistan prezidenti, sonralar “solyarka” oğurluğu üzrə açılan cinayət işində əsas fiqur olan Serj Sarkisyan belə cavab vermişdi: “Xocalıda olanlar ona görə baş verdi ki, biz başladığımız işi sona çatdırmaqda qərarlı olduğumuzu azərbaycanlılara göstərməliydik...”.

Ermənilər “başladığı işi sona çatdırmaqda qərarlı olduqlarını azərbaycanlılara göstərəndən” 3-4 ay sonra katolikos I Vazgen işğal edilmiş Şuşa şəhərinə gələrək, Allah adından onlara xeyir-dua verirdi...

Zəmanəmizdə isə bu ruhani missiyanın 132-ci daşıyıcısı, “günahkar dünyada” doğulmuş Ktriç Qriqoryeviç Nersisyanın çiyinlərinə düşüb. Onu yada salaq ki, 70 yaşlı Nersisyan, V Nersesdən sonra hazırkı Ermənistan ərazisində doğulan birinci katolikosdur və vəzifəsinin icrasına II Qaregin kimi başlayıb. Bütün ermənilərin ali patriarxı və katolikosu on illərdir fərqli vətəndaşlığa, fərqli siyasi baxışlara, fərqli sosial statusa malik insanlardan ibarət kütlə üçün mübahisəsiz bir səlahiyyət sahibi ola bilib. Bununla belə, hər şey 2018-ci ildə dəyişdi.

Məxməri inqilabdan çıxan Ermənistan vətəndaşlarının əhəmiyyətli bir hissəsi kilsə rəhbəri II Qareginin istefasında təkid göstərirdi. Erməni ictimaiyyətinin nəzərəçarpacaq hissəsi hesab edirdi ki, ölkəni mövcud duruma gətirən təkcə “erməni xalqının xoş gələcəyi” üçün “çarpışan” siyasətçilər deyil, həm də Allahın və “erməni xalqının qulları” olan kilsə xidmətçiləridir. Patriarxın avtomobili dəfələrlə etirazçılar tərəfindən mühasirəyə alındı, hətta katolikosun Eçmiedzindəki monastr həyətinə yaxın yaşayış binasında əlbəyaxa döyüşlər getdi.

İnsanların qəzəbinin səbəblərindən biri də kilsə rəhbərliyinin lüks həyatıdır. Koçaryan-Sarkisyan bandasının üzvləri ilə “haqq- hesab çəkməyi” qətiləşdirən Ermənistan cəmiyyəti üçün katolikos və ətrafındakı “parazit sürüsü” də həmin quldur dəstəsindən heç nə ilə fərqlənmirdi.

Yeri gəlmişkən, həmin “təlatümlü anlarda” II Qaregin müdafiəsi üçün yerdə təmsilçisi olduğu böyük Allaha deyil, “bu günahkar dünyanın” kiçicik adamına - hakimiyyətə yenicə gəlmiş Nikol Paşinyana üz tutmağı zəruri saydı. Baş nazirin katolikosa cavabı isə kilsənin hakimiyyətdən ayrı olmasını xatırlatması oldu. Onu da yada salaq ki, bu cavabın əvəzini II Qaregin 44 günlük müharibədə rüsvayçı məğlubiyyətə uğramış Ermənistanda cəmiyyətini baş nazirə etirazlarını körükləməklə verdi.

Bu, II Qareginin qalmaqalın mərkəzinə ilk dəfə düşməsi deyildi. O, hələ 2007-ci ildə baş nazir Serj Sarkisyanın əlindən mükafat qismində silah almışdı. Baş kilsə xadiminin statusunun odlu silahlarla necə birləşdirildiyi ilə bağlı cəmiyyətdən gələn çoxsaylı suallar o vaxt cavabsız qaldı. Düzdür, cəmiyyətin özü də erməni din xadimlərinin zəhərlədiyi toplumdan ibarətdir. O toplum ki, 44 günlük müharibə zamanı işğaldan azad olunmuş Kəlbəcərdəki qriqoryanlaşdırılmış alban kilsəsinin keşişi Ter-Hovhannes Hovannesyanın əlində “Klaşnikov” avtomat tutmasını elə də pis qarşılamadı.

Buna baxmayaraq, erməni apostol kilsəsinin mahiyyəti ötən ilin payızındakı müharibədən sonra Ermənistan cəmiyyətində geniş müzakirə mövzularından birinə çevrildi. Məsələn, erməni bloqeri Roman Baqdasaryan iyun ayında həmin mahiyyətlə bağlı ancaq Ermənistanda “vurnuxub qalan” ermənilərə deyil, bütün erməni cəmiyyətinə belə bir sual ünvanladı: “Ermənistanda yaşayan şəxs olaraq 25 ildir şəxsən mən eşitmişəm ki, Qarabağdan qəbirüstü daşlar gətirilərək Ermənistanda satılır. Bu “bazarlıqda” kilsə xadimlərimizin əlinin olduğu barədə isə çoxları məlumatlıdır. Hamının eşitdiyi bu xəbər ola bilməz ki, II Qaregina çatmasın. Bəs hansı birimizsə onun bu məsələyə münasibəti barədə bir söz eşidibmi?”.

Maraqlı sualdır və ədalət naminə, 1700 illik tarixi olduğu iddia edilən kilsə barədə son vaxtlar erməni cəmiyyətində oxşar sualların intensivləşdiyi müşahidə edilir.

# Vüqar Rəhimzadə: Oxçuçayın çirkləndirilməsində alman şirkətlərinin iştirakı nəyə dəlalət edir?



**“Ermənistanın işğalçılıq siyasətinə 30 ilə yaxın dövrdə göz yuman, ədaləti maraqların arxasında gizlədərək beynəlxalq hüququn norma və prinsiplərini, BMT Təhlükəsizlik Şurasının qərar və qətnamələrini məkana görə icra edən dövlətlər, təşkilatlar bu siyasətin davamı olaraq işğalçı dövlətin həyata keçirdiyi ekoloji terror əməllərinə də seyrçi mövqedə dayanır, illərdir dünya birliyinə qarşı yaratdıqları etimadsızlıq mühitini daha da dərinləşdirirlər.**

Ermənistanın Azərbaycana qarşı həyata keçirdiyi ekoloji terrorda xarici, xüsusilə Qərb şirkətlərinin iştirakına dair çoxsaylı faktlar mövcuddur. Məhz bu yanaşmalar, işğalçıya dəstək dünyanın hüquq problemini yaşadığını bir daha ortaya qoyur, həmçinin belə olduğu təqdirdə hansısa dövlətin, təşkilatın kağız üzərində qalacaq sənədi qəbul etməsinə hansı ehtiyacın olması ilə bağlı sualların yaranmasına səbəb olur. Ermənistanın istər işğal dövrü, istərsə də 10 noyabr 2020-ci il üçtərəfli Bəyanata uyğun olaraq Kəlbəcər, Ağdam və Laçın rayonlarını boşaldarkən törətdikləri ekoloji terrorlar dünyanın gözü qarşısında baş verib. Seyrçi mövqelər daim başqa cinayətlərə yol açmaqla dünyada sülhə, təhlükəsizliyə böyük problemlər yaratmış olur. Zəngilan rayonu ərazisindən keçən Oxçuçayın çirkləndirilməsi, çay hövzəsinin flora və faunasının məhv edilməsi təkcə Azərbaycanın yox, bütün dünyanın geniş rezonans və ictimai narazılıq doğuran məsələlərdən olmalıdır. Təəssüf ki, bir çox məqamlarda dünya belə ədalətsizliyə qarşı susqunluq nümayiş etdirir. Oxçuçayın çirkləndirilməsi, çay hövzəsinin flora və faunasının məhv edilməsi Azərbaycanda ciddi ictimai narazılıq və narahatçılıq doğuran məsələlər sırasındadır.

Bu baxımdan ki, Ermənistanın dağ-mədən şirkətlərinin fəaliyyəti Oxçuçayda həyəcan təbilinin çalınmasına rəvac verən vəziyyət yaradıb. Diqqət çəkən, eyni zamanda, müxtəlif sualların yaranmasına səbəb olan məsələ bu prosesdə Almaniyanın CRONIMET Holding GmbH şirkətinin yaxından iştirak etməsidir. Bu kimi addımlar öz növbəsində Almaniya mətbuatında mütəmadi olaraq ölkəmizlə bağlı qərəzli yazıların yer alması səbəblərinə də işıq salır. Təhlillər əsasında bu məqam açıqlanır ki, Almaniya mediası müxtəlif illərdə Azərbaycana qarşı Soros şəbəkəsi tərəfindən təşkil edilən qarayaxma kampaniyalarında fəal iştirak edib. Səbəb nədir?”

Bu fikirləri “İki sahil” qəzetinin baş redaktoru, siyasi elmlər doktoru Vüqar Rəhimzadə KİV-ə açıqlamasında bildirib.

V.Rəhimzadə qarayaxma kampaniyalarının təşkilində əsas məqamlara diqqəti yönəldib: “Azərbaycanın düşünülmüş və məqsədyönlü, ən əsas müstəqil siyasəti nəticəsində qazandığı uğurların miqyası günbəgün genişlənir. Ölkəmizin beynəlxalq münasibətlər sistemində artan rolu və mövqeyi göz önündədir. Hazırkı dövr İkinci Qarabağ müharibəsində tarixi Zəfərimizin yaratdığı yeni reallıqlarla zəngin olduğundan dünya üçün mühüm olan bu məqamı xüsusi qeyd etməliyik ki, Azərbaycan bu gün regionda diktə edən tərəf kimi çıxış edir, yeni əməkdaşlıq formatlarının təşəbbüskarıdır, eyni zamanda, dünyanın xarici siyasətində dəyişikliklərin edilməsinə nail olub. O dəyişikliklər ki, 30 ilə yaxın dövrdə Azərbaycan dünya güclərindən, nüfuzlu beynəlxalq təşkilatlardan ədalət, beynəlxalq hüquqa hörmətlə yanaşmağı gözləyib. 44 günlük İkinci Qarabağ müharibəsi dünyaya bu reallıqları çatdırdı. Azərbaycanın yalnız tarixi Zəfərimizdən sonra deyil, 29 ilə yaxın müstəqillik tarixində qazandığı uğurlar daim anti-Azərbaycan qüvvələr tərəfindən qısqanılıqla, qərəzlə qarşılanıb. Əksər beynəlxalq müdafiə hüquq və qeyri-hökumət təşkilatları bu qərəzdən irəli gələrək Azərbaycanı “qeyri-azad”, Ermənistanı isə “azad” ölkələr sırasında qeyd ediblər. ABŞ-ın bəzi hüquq təşkilatları bir qədər də irəli gedərək Dağlıq Qarabağı Azərbaycan və Ermənistanın müştərək ərazisi kimi qeyd ediblər. Azərbaycanın malik olduğu təbii resurslardan səmərəli istifadəsi, iştirakçısı və təşəbbüsçüsü olduğu layihələrin uğurlu icrası nəticəsində dünyanın enerji təhlükəsizliyinin əsas təminatçısına çevrilməsi də anti-Azərbaycan qüvvələrin, o cümlədən Soros şəbəkəsinin fəallaşmasında mühüm rol oynayan amillər sırasındadır.”

Baş redaktor bildirib ki, uğurlarımızı görüb sevinənlərlə yanaşı, sevinməyənlərin olması təbiidir: “Əsas olan çirkin niyyətlərin qərəzli yanaşmalarda, təbliğatlarda əksini taparaq, dövlətin işinə müdaxilələrlə müşaiyət olunmasıdı. Bu baxımdan ki, “Evrovison-2012” musiqi, 2015-ci il ilk Avropa oyunları və digər mühüm tədbirlər zamanı Almaniya mediasının Azərbaycana qarşı aqressiv mövqeyini ortaya qoymasını yada salmaq kifayətdir. Bir məqamı da nəzərə alsaq ki, Azərbaycan müxalifətinin radikal qanadı Sorosun dostu kimi tanınanlar bu halda onların qərəzli məlumatları əsasında hazırlanan materialların Soros şəbəkəsinə yaxın dairələrin inhisarında olan mətbu orqanlarda yer alması başadüşüləndir. Daim ermənilərə dəstək olan, onların müdafiəsinə qalxan daxili bədxahlarımızın bu sevgisində Nikol Paşinyanın Sorosun layihəsi olduğunu da nəzərə almalıyıq. Nikol Paşinyan amerikalı milyarder Corc Sorosun əsirinə çevrilib. O, Sorosçular tərəfindən əsir götürülərək onların diqtəsi ilə hərəkət edir.”

Baş redaktor Ermənistanda keçirilən növbədənkənar parlament seçkilərinin də bu kimi məqamlara işıq saldığını bildirib: “Reallıq budur ki, bütün hallarda Azərbaycan müstəqil siyasəti ilə belə çirkin təbliğatları cavablandırır. Soros kimilər Azərbaycan reallıqlarını inkar etmək, xalqın iradəsinə təsir göstərmək imkanında deyillər. Yeni reallıqlar dünya ilə yanaşı, ölkəmizə qarşı qərəzli mövqedə dayanan, ermənipərəst siyasət yürüdən dairələrə də ciddi mesajları ünvanlayır. Soros Fondu müntəzəm olaraq Azərbaycan əleyhinə bəyanatlar, qərəzli mövqelər verməkdə davam edir. Xüsusilə, insan haqları, siyasi həbslər, QHT-lərə təzyiq mahiyyətli bəyanatlar heç bir reallığı əks etdirmir. Ölkə başçısının bu gün daxili siyasi kursuna baxdıqda ölkədəki bütün siyasi partiyalara dəstək verdiyi, onlarla dialoq təşkil edib, sağlam siyasi mühitin formalaşdırıldığı göz önündədir. Soros bunları öz maraqlarına görə görməzdən gəlməklə demokratik dəyərlərə, inkişafa hansı prizmadan yanaşdığını nümayiş etdirir. Almaniyanın Soros şəbəkəsi tərəfindən təşkil edilən qarayaxma kampaniyalarına dəstək olması birmənalı qarşılana bilməz. Belə müdaxilələr daim dövlətimiz tərəfindən sərt reaksiya ilə üzləşib, bəyanatların səsləndirilməsini şərtləndirib. Azərbaycan reallıqları aparılan qərəzli kampaniyalara tutarlı cavabdır. Necə ki, 44 günlük Vətən müharibəsində beynəlxalq hüquqa əsaslanan mövqeyimiz döyüş meydanında qələbəmizin əsası oldu.”

# YAP Gənclər Birliyi Ermənistan tərəfindən Oxçuçayda suyun çirkləndirilməsi ilə əlaqədar bəyanat yayıb




**Yeni Azərbaycan Partiyası Gənclər Birliyi Ermənistan tərəfindən Oxçuçayda suyun çirklənməsi ilə əlaqədar bəyanat yayıb. YAP-ın mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, bəyanatda Ermənistan tərəfindən Azərbaycana qarşı 30 ilə yaxın müddətdə aparılan işğal siyasəti nəticəsində torpaqlarımızın 20 faizinin işğal altında olduğu qeyd edilib.**

Bəyanatda, həmçinin deyilir: “BMT-nin Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğalına və bu işğalın dayandırılmasına dair 4 qətnaməsinin qəbul edilməsinə, Azərbaycanın münaqişənin sülh yolu ilə uzun illər həll olunmasına dair səy göstərməsinə baxmayaraq, Ermənistan işğalçılıq siyasətinə davam edirdi. İşğalçılıq siyasəti təkcə döyüş meydanında deyil, həm də Azərbaycana qarşı ekoloji terror aparılmaqla da həyata keçirilirdi. İşğal dövründə Azərbaycanın təbii zənginliklərlə dolu Qarabağ bölgəsi ciddi ziyana məruz qalmışdır. Meşələr yandırılmış, çaylar zəhərli tullantılarla çirkləndirilmişdir. 2020-ci ilin sentyabr ayının 27-dən başlayaraq Azərbaycan Ermənistanın təxribatlarına qarşı əks-hücum əməliyyatları keçirirək, 44 gün ərzində işğal altında olan torpaqlarını azad edərək, öz ərazi bütövlüyünü bərpa etdi. Həmin ərazilər işğaldan azad edildikdən sonra, ərazidə böyük quruculuq işlərinə başlanıldı, xüsusilə məhv edilmiş flora və faunanın bərpası istiqamətində ciddi işlər aparılır”.

YAP Gənclər Birliyinin bəyanatında qeyd olunub ki, Ermənistan tərəfindən ciddi çirklənməyə məruz qalmış çaylardan biri də Azərbaycanın Zəngilan rayonunun ərazisindən keçən 83 kilometrlik uzunluğa malik olan Oxçuçaydır. Həmin çayın 47 kilometrlik hissəsi məhz Ermənistan ərazisindən keçir ki, bu da çayın çirklənməyə məruz qaldığı əsas yerdir. Burada fəaliyyət göstərən Zəngəzur mis-molibden zavodu çayın çirklənməsinin əsas səbəbkarıdır. Lakin buna baxmayaraq, şirkət bu məsuliyyətdən yayınmağa çalışır və həmin iddiaları qəbul etmir. Bir zamanlar əkinçilik məqsədləri üçün istifadə olunan və nadir balıq növlərinin olduğu bu çay indi yüksək səviyyədə çirklənməyə görə canlı aləmi məhv edir. Çayın suyu həddindən artıq zəhərli olduğuna görə burada heç bir canlı yaşamır və bu səbəbdən “ölü çay” adlanır.

“Zəngilan rayonu azad olunduqdan sonra ekoloqlar tərəfindən bu bölgədə ekoloji vəziyyətlə bağlı, xüsusilə Oxçuçayda suyun çirklənməsinə dair araşdırmalar aparılıb. 2021-ci ilin yanvar-mart aylarında sudan alınan nəticələr onu göstərir ki, burada yüksək miqdarda ağır metallar - mis, molibden, manqan, dəmir, sink və xrom vardır. Bu cür çirklənmə flora və faunaya ciddi zərər verməklə yanaşı, insan həyatına da xüsusi təhlükə yaradır. Suyun tərkibində qeyd olunan ağır metalların çoxluğu insan orqanizmində mədə-bağırsaq traktının pozğunluqlarından tutmuş böyrəklərdə və sümük toxumasında dağıdıcı proseslərlə bədənin ürək-damar, sinir və hematopoetik sistemlərinin pozulmasına qədər fəsadlara səbəb olur. Oxçuçaydan alınan nümunələr bir daha sübut edir ki, Zəngəzur mis-molibden zavodu bu çaya çirkli suyu təmizləmədən axıdır”, - Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin bəyanatında deyilir.

Dünyada içməli suya tələbatın getdikcə artmasının xüsusi vurğulandığı bəyanatda daha sonra bildirilir: “BMT-nin məlumatına görə, dünya əhalisinin təqribən 2,2 milyard nəfəri təhlükəsiz idarə olunan içməli suya sahib deyil. 2040-cı ildə qlobal su tələbatı 50 faizdən çox arta bilər və 2050-ci ilə qədər ildə su çatışmazlığından əziyyət çəkən ərazilərdə yaşayan əhalinin sayı 5,7 milyard nəfərə çatacaq. Su ehtiyatlarının 70 faizinin qonşu ölkələrin ərazisindən keçərək gəldiyi Azərbaycan üçün şirin su məsələsi çox aktualdır. Lakin Ermənistanın Transsərhəd Su Axınlarına dair Helsinki Konvensiyasına qoşulmaması onun beynəlxalq hüquq qarşısında məsuliyyət daşımaqdan boyun qaçırmasına şərait yaradır. Bu beynəlxalq sənəd transsərhəd səth sularının və yeraltı suların ekoloji cəhətdən etibarlı idarə olunmasına və qorunmasına yönəlmiş milli tədbirlərin, beynəlxalq əməkdaşlığın gücləndirilməsi üçün bir mexanizm rolunu oynayır.

YAP Gənclər Birliyi olaraq bütün beynəlxalq ictimaiyyəti, xüsusilə ətraf mühitlə bağlı təşkilatları Ermənistanın əməllərinə qarşı laqeyd qalmamağa çağıraraq beynəlxalq ictimaiyyət Ermənistanın Azərbaycana qarşı apardığı ekoloji terror əməllərini kəskin şəkildə pisləməli olduğunu deyib. 30 ilə yaxın Ermənistanın Azərbaycana qarşı işğal siyasəti milyonlarla azərbaycanlının taleyinə ciddi təsir edib, on minlərlə insan qətlə yetirilib, yüz minlərlə insan yaşayış yerlərindən məhrum olunub. Bu təcavüzün ekoloji müstəvidə davam etməsinə təsirsiz qalmaq bütün dünya ictimaiyyətini narahat etməlidir”.

# XİN: Azərbaycan BMT missiyasını qəbul etməyə hazırdır



**Azərbaycan tərəfi və BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının (BMTQAK) arasında aparılmış müzakirələr nəticəsində BMTQAK-ın ölkəmizin münaqişənin təsirinə məruz qalmış ərazilərinə missiyasının həyata keçirilməsi ilə bağlı razılıq əldə edilib. AZƏRTAC xəbər verir ki, bunu Xarici İşlər Nazirliyinin mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva bildirib.**

“Azərbaycan humanitar missiyaların həyata keçirilməsi ilə bağlı beynəlxalq hüquq prinsiplərini, xüsusilə də dövlət suverenliyi prinsipini rəhbər tutaraq beynəlxalq missiyaları öz ərazisində qəbul etməyə hazırdır. Bu xüsusda, BMTQAK missiyasının azad olunmuş ərazilərimizə həyata keçirilməsi ilə bağlı təşkilatdan konkret məlumatın təqdim edilməsini gözləyirik. Bir daha vurğulamaq istərdik ki, Azərbaycan beynəlxalq hüquq prinsipləri əsasında BMTQAK missiyasını qəbul etməyə hazırdır”, - deyə L.Abdullayeva qeyd edib.

# İqtisadiyyatın şaxələndirilməsini sürətləndirəcək növbəti layihə - Ələt Azad İqtisadi Zonası

## Prezident İlham Əliyev: "Hesab edirəm ki, məhz bu zona potensial investorlar üçün cəlbedici ola bilər"

Azərbaycanda həyata keçirilən iqtisadi islahatların əsas məqsədi ölkənin hərtərəfli inkişafına nail olmaqdır. Bunun üçün də qeyri-neft sektorunu inkişaf etdirmək vacibdir. İndiyədək bu istiqamətdə xeyli iş görülüb. Xüsusilə texnoparkların və sənaye zonalarının yaradılması sayəsində qeyri-neft sektorunda məhsul istehsalı ildən-ilə artmaqda davam edir. Prezident İlham Əliyevin iyulun 1-də təməlqoyma mərasimində iştirak etdiyi Ələt Azad İqtisadi Zonasının fəaliyyətə başlaması bu sahədə daha böyük dönüşə səbəb olacaq. Çünki indiyədək azad iqtisadi zonalar mövcud olduqları ölkələrdə iqtisadi inkişafa böyük töhfələr verib. Azərbaycanın da bu təcrübədən istifadə etməsi, şübhəsiz ki, ölkəmizə yeni uğurlar qazandıracaq.

Əlbəttə, bütün bunlar dövlət başçısının uğurlu iqtisadi strategiyası, həyata keçirilən iqtisadi islahatlar nəticəsində gerçəkləşib. Məhz cənab Prezidentin müvafiq fərmanı ilə təsdiq edilmiş Strateji Yol Xəritəsinin uğurla həyata keçirilməsi, cənab Prezidentin imzaladığı Sərəncama əsasən Qaradağ rayonunun Ələt qəsəbəsində yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanının ərazisi daxil olmaqla, Azad Ticarət Zonası tipli xüsusi iqtisadi zonanın yaradılması ölkəmizin sürətlə inkişafına zəmin yaradır. Azad iqtisadi zonalar ehtiyatda olan məhsulların bir qisminin daxili bazara çıxarılmasına geniş imkan yaratmaqla, öz növbəsində idxaldan asılılığın aradan qaldırılması və yerli məhsulun bazara çıxarılması baxımından çox vacibdir. Sözügedən zona ümumilikdə Azərbaycan iqtisadiyyatının inkişafına böyük müsbət təsir göstərəcək.



### Ələt Azad İqtisadi Zonası xarici sərmayədarlar üçün maraqlı investisiya məkanına çevriləcək

Ələt Azad İqtisadi Zonasının yaradılması ölkəmizdə qeyri-neft sektorunun inkişafında açılan yeni səhifə kimi böyük əhəmiyyətə malikdir. Əminliklə deyə bilərik ki, investorların buraya marağı çox böyük olacaq. Ələt Azad İqtisadi Zonasının yaradılması ölkəmizdə qeyri-neft sektorunun inkişafında açılan yeni səhifə kimi böyük əhəmiyyətə malikdir. Əminliklə deyə bilərik ki, investorların buraya marağı çox böyük olacaq. Xüsusi qanunlarla idarə ediləcəyinə görə Ələt Azad İqtisadi Zonası xarici sərmayədarlar üçün maraqlı investisiya məkanına çevriləcək. Ələt İqtisadi Zonası burada yaradılacaq sosial infrastruktur və xarici sərmayədarlar üçün təqdim ediləcək imkanlar baxımından digər ölkələrdəki oxşar zonalardan daha cəlbedici olacaq.

### Vüqar Bayramov: "Ələt azad iqtisadi zonası xarici investisiya və qeyri-neft ixracının artmasına səbəb olacaq"

İqtisadçı-ekspert, millət vəkili Vüqar Bayramov bildirib ki, Ələt azad iqtisadi zonasının xüsusi status əsasında fəaliyyəti Azərbaycan iqtisadiyyatı və xarici investorlar üçün faydalı olacaq: "Ələt artıq terminal statusundan çıxaraq "Azad İqtisadi Zona" statusu qazanır. Bildiyiniz kimi, Ələt Azad İqtisadi zonasının yaradılması ilə bağlı qanun layihəsi hazırlanıb və Milli Məclisdə iki oxunuşdan keçib. Nəticə etibari ilə sözügedən qanun Ələtə xüsusi status verir. Yəni, Ələt azad iqtisadi zonası xüsusi statusla, hasilatın pay bölgüsü statusuna bərabər statusla fəaliyyət göstərəcək. Bu statusun verilməsi xarici investisiyanın cəlb edilməsi baxımından vacibdir. Yeni güzəşt mexanizminin tətbiq olunması Ələt azad iqtisadi zonasına xarici investisiya cəlbini artıracaq. Burada artıq beynəlxalq hüquq normaları tətbiq ediləcək. Azərbaycanın öhdəliklərinin, eləcə də Ələt azad iqtisadi zonasında rezidentlərin öhdəliklərinin ayrıca qanunla müəyyənləşdirilməsi vacibdir. Təbii ki, bütün bunlar xarici investisiyanın cəlb edilməsinə imkan yaradacaq".

V.Bayramov əlavə edib ki, hazırda Avropa Birliyi, eləcə də Körfəz ölkələrindən investisiyanın cəlb edilməsi istiqamətində danışıqlar aparılır. Ölkəyə yatırılan investisiyanın təxminən yarısının xarici investisiyalar olduğunu deyən iqtisadçı hesab edir ki, Ələt azad iqtisadi zonasının formalaşması yaxın illərdə birbaşa xarici investisiyanın əlavə olaraq 3 mlrd. dollar artmasına imkan verəcək.

V.Bayramov hesab edir ki, Ələtin yeni statusu həm də istehsalın təşviq edilməsinə zəmin yaradacaq: "Ələt Azad İqtisadi Zonası həm də istehsalın təşviq edilməsi baxımından mühüm rola malik olacaq. Çünki, həmin məhsulların, eləcə də xidmətlərin ixracından ölkəyə valyuta axını güclənəcək".

Onun sözlərinə görə, strateji yol xəritəsində adambaşına düşən qeyri-neft ixracatının 450 dollara, bütövlükdə qeyri-neft ixracının 4,5 mlrd. dollara yaxın artırılması əsas hədəflərdəndir: "Azad iqtisadi zonanın yaradılması Ələtdə bugünkü 1,5 milyard dollarlıq qeyri-neft ixracının starteji yol xəritəsinə uyğun olaraq 3 dəfə artırılmasına imkan verəcək".

V.Bayramov vurğulayıb ki, Ələtin infrastrukturunun genişləndirilməsi yaxın illərdə Azərbaycan vasitəsi ilə yükdaşımanın həcmini 2 dəfəyə yaxın artıra bilər. Bir sözlə, Ələt Azad İqtisadi Zonası ölkə iqtisadiyyatının şaxələndirilməsini sürətləndirəcək və neft sektorundan asılılığın azaldılmasına töhfə verməklə yanaşı, həmçinin potensial investorlar üçün cəlbedici məkan olacaq.Azərbaycan Prezidenti İlham Əliyevin dediyi kimi: "Beləliklə, bir ildən sonra - gələn ilin iyul ayında zona investorları qəbul etməyə hazır olacaq. Əminəm, biz görəcəyik ki, bax, burada göstərilən mənzərə həyatda öz əksini tapacaq. Çünki bu günə qədər bütün təşəbbüslərimiz, bütün planlarımız həyatda öz əksini tapıb. Elə bir təşəbbüs olmayıb ki, o, reallığa çevrilməsin. Ən çətin layihələr, transmilli layihələr, çox çətin geosiyasi vəziyyətdə həyata keçirdiyimiz layihələr uğurla başa çatıb. Bunları sadalamağa ehtiyac yoxdur, hər kəs bilir söhbət nədən gedir. Ona görə, bu zonanın yaradılması, əminəm ki, uğurumuzun növbəti addımı olacaqdır".

***RƏFİQƏ KAMALQIZI***

# Türkiyə Əfqanıstandadır: Azərbaycanın hansı rolu var?

**Andrey Sarenko: "Nəinki Kabil hava limanının vacibliyi artır, həm də Əfqanıstan siyasətində şimal axını təchizatı baxımından böyük rol oynamış Bakı ilə aviasiya rabitəsi də əhəmiyyət daşıyır"**



Rusiya politoloqlar cəmiyyətinin analitik mərkəzinin direktoru, Əfqanıstan siyasətinin öyrənilməsi mərkəzinin rəhbəri Andrey Sarenko bildirib ki, müttəfiq hərbi birləşmələrinin çıxarılmasının ardınca Türkiyə Silahlı Qüvvələrinin Əfqanıstandakı mövcudluqları, əsasən, siyasi qərar məqsədini daşımaqdadır. "Bu layihə söz yox ki, Türkiyənin mövqeyini və əsasən prezident Rəcəb Tayyib Ərdoğanın NATO daxilindəki mövqeyini möhkəmləndirir", qeyd edən Sarenkoya görə, çox yəqin ki, Əfqanıstandan Qərbə informasiyaların verilməsi, kəşfiyyat işi, agentura-informasiya şəbəkələrinin məlumatları əhəmiyyət daışıyır. SİA xəbər verir ki, politoloqun fikirlərini Türk klubu telegram səhifəsi yazıb.

**"Türkiyə Kabillə ABŞ və NATO arasındakı kommunikasiya və infrastruktur körpüsü rolunda çıxış edə bilər"**

Digər tərəfdən, Berlində, Londonda, ya da Vaşinqtonda belə bir irimiqyaslı işlərin aparılması çətin prosesdir. Çünki yerlərdə etibarlı insanlara malik olmaq lazımdır. SİTAT: "Məhz Əfqanıstan məsələsində də belə bir koordinator rolu lazımdır ki, burada Türkiyə Kabillə ABŞ və NATO arasındakı kommunikasiya və infrastruktur körpüsü rolunda çıxış edə bilər".

Politoloqun sözlərinə görə, paytaxt hava limanı istənilən ölkədə əhəmiyyət kəsb edir. "Aydındır ki, onu əfqanlar özləri müdafiə altına almaqla təhlükəsizliyini təmin edəcəklər. Lakin onlar radar, mükəmməl dispetçer xidməti, uçuşların təhlükəsizliyi baxımından texniki dəstəyə ehtiyac duyurlar. Mən bildiyim qədər, məhz bu keyfiyyətləri nəzərə alaraq, Kabildə türk tərəfinin əməkdaşlığına baxılmaqdadır", deyə Sarenko bildirib.

Onun sözlərinə görə, Kabil aeroportu ölkənin hava məkanına nəzarət üçün mühüm elementdir. "Çox yəqin ki, ABŞ və NATO ölkələri tərəfindən Əfqanıstana verilmiş dəstək vədləri hesabına əfqan hakimiyyətinə və ordusuna göndəriləcək yüklər əsasən hava yolu ilə çatdırılacaq", deyən rusiyalı politoloq Bakının da rolundan bəhs edib. SİTAT: "Yeri gəlmişkən, ona görə də nəinki Kabil hava limanının vacibliyi artır, həm də Əfqanıstan siyasətində şimal təchizatı baxımından böyük rol oynamış Bakı ilə aviasiya rabitəsi də əhəmiyyət daşıyır".

***Rövşən RƏSULOV***

# Avropa Birliyi Azərbaycanı "yaşıl siyahı"ya əlavə edib

Avropa Şurası "yaşıl siyahı"ya 11 ölkənin də adını əlavə edib. SİA xəbər verir ki, bu ölkələr epidemioloji cəhətdən təhlükəsiz olaraq tanınırlar və vətəndaşları artıq AB üzv ölkələrinə sərbəst daxil ola biləcəklər. Qərar iyunun 30-da Aİ səfirlərinin adi iclası zamanı verilib.

Yenilənmiş siyahıya Azərbaycan, Bosniya və Herseqovina, Bruney, Kanada, İordaniya, Kosovo, Moldova, Çernoqoriya, Qətər və Səudiyyə Ərəbistanı daxildir. Qeyd edək ki, siyahıda Albaniya, Avstraliya, İsrail, Yaponiya, Livan, Yeni Zelandiya, Şimali Makedoniya, Ruanda, Serbiya, Sinqapur, Cənubi Koreya, Tayvan, Tayland və Amerikanın adı daxil idi. Məlum olub ki, on iki ölkənin hamısında son iki həftə ərzində yeni koronavirusa az sayda yoluxma hadisəsi baş verib. Xüsusilə, Azərbaycanda 29 iyun tarixinə qədər 38 yoluxma, Kosovoda - 4, Bruneydə - yalnız bir nəfər qeydə alınıb və bu müddət ərzində Çernoqoriyada yeni bir koronavirus infeksiyası hadisəsi olmayıb. Eyni zamanda, Böyük Britaniya yeni "delta" ştammının yüksək səviyyədə yayılmasının qeydə alındığı üçün "yaşıl siyahı"dan çıxarılıb.

Təhlükəsiz ölkələr siyahısının genişləndirilməsi Aİ-nin üçüncü ölkələrdən gələn turistlərə açılması strategiyasının bir hissəsidir. Avropa Birliyi üzv ölkələrin üçüncü ölkələrdən girişə qoyulan bütün məhdudiyyətləri ləğv etmələrini tövsiyə edir, lakin hər bir ölkə özünü təcrid etmək kimi məhdudiyyətlər tətbiq edə bilər. Üzv dövlətlər də "yaşıl siyahı"nı avtomatik tətbiq etmək məcburiyyətində deyillər, lakin hər ölkədə öz təhlükəsiz yerlərinin siyahısını formalaşdırarkən bu əsas götürülür.

Rusiya "delta" ştammının ("hindistan koronavirusu" növü) yüksək yayılması səbəbindən hələ də əksər AB ölkələri üçün "qırmızı siyahı"dadır. Fransa və Almaniya kimi ölkələr testlərin nəticələrindən və ya koronavirus peyvəndinin mövcudluğundan asılı olmayaraq Rusiyadan daxil olan bütün vətəndaşlar üçün məcburi karantin tətbiq etdilər. Çex Respublikası da öz növbəsində Rusiyanı "qara siyahı"ya salıb.

# Yol infrastrukturunun yaxşılaşdırılması iqtisadi subyektlərin səmərəliliyinə dəlalət edir

"Azərbaycanda 2003-cü ildən başlayaraq bütün sahələrdə olduğu kimi yol insfrastrukturunun da yaxşılaşdırılmasına dair çox mühüm addımlar atılır". Bu fikirləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Məzahir Əfəndiyev deyib. Deputat bildirib ki, bir tərəfdən dövlət büdcəsindən əhəmiyyətli dərəcədə maliyyə vəsaiti ayrılır, digər tərəfdən də yolların keyfiyyətinin yaxşılaşdırılmasına dair artıq əməli proyektlər həyata keçirilir: "Bütün bunların nəticəsidir ki, beynəlxalq standartlarda da Azərbaycanda yol infrsartrukturuna dair indekslərdə qabaqcıl yerlərdə mövqe tutub. Yol infrastrukturunun yaxşılaşdırılması həmçinin iqtisadi subyektlərin də açılmasına və səmərəliliyinə dəlalət edir". M.Əfəndiyev vurğulayıb ki, işğaldan azad olunmuş ərazilərdə Şuşaya Zəfər, Ağdama isə yeni yolun çəkilməsi, həmçinin Salyan-Neftçala magistralının Kür Qaraqaşlı-Beştalı-Cəngən-Xocalı-Ərəbqardaşbəyli kəndləri ilə birləşdirən avtomobil yolunun çəkilməsi yaxın gələcəkdə Azərbaycan iqtisadiyyatına böyük töhfə verəcək: "Bu da öz növbəsində Azərbaycan iqtisadiyyatının inkişafı ilə yanaşı, həmin ərazilərdə yaşayan insanların rifahının yaxşılaşdırılmasına xidmət edəcəkdir".

***Aysel Məmmədova***

# Növbəti qətiyyətli, parlaq diplomatik qələbə

Bu, real faktordur ki, Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev son 18 illik prezidentlik fəaliyyəti dövründə planlı, qətiyyətli və parlaq diplomatik siyasət aparıb və rəşadətli əsgər və zabitlərimizin canı və qanı bahasına 44 gün ərzində "Qarabağ Azərbaycandır" nidasını qoyaraq Qarabağı işğaldan azad etməklə Zəfər Qələbəsi qazandı. Başqa yol da ola bilməzdi. Çünki bu gün Azərbaycan qətiyyətli nizamlı siyasəti ilə minalanmış ərazilərin xəritələrini Ermənistandan bir-bir alaraq öz hədəflərimizə çatmalıyıq və bu hədəflərə ardıcıl olaraq çatırıq da! Baxmayaraq ki, beynəlxalq arenalarda erməni əsirlərinin qaytarılması üçün təzyiqlər edilir və bəyanatlar verilirdi. Ancaq Azərbaycana qarşı başladılan informasiya hücumu uğurla dəf edildi. Həmçinin, sərhədlərin dəqiqləşməsi və gələcəkdə sülh müqaviləsinin bağlanması da əsas hədəflərdəndir ki, Azərbaycan bunlara da nail olacaq. Nəticə göz qabağındadır. Ermənistan işğal dövründə Füzuli və Zəngilan rayonlarında basdırdığı təqribən 92 min tank və piyada əleyhinə minalara dair xəritələri iyulun 3-də Azərbaycan tərəfinə təqdim edib. Bu isə, on minlərlə vətəndaşımızın, o cümlədən minatəmizləyənlərin həyatını təhlükədən xilas edəcək və işğaldan azad edilmiş ərazilərimizdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən əsası qoyulan tikinti və yenidənqurma layihələrini və məcburi köçkünlərin qayıdışı prosesini sürətləndirilməsi deməkdir. Humanist addım olaraq Azərbaycan tərəfi məhkəmənin hökmü ilə azadlıqdan məhrum edilmiş və təyin edilmiş cəza müddəti bitmiş 15 nəfər erməni əsilli şəxsi Ermənistana təhvil verib.

Əslində, Ağdamdan sonra Füzuli və Zəngilan ərazisində mina xəritələrinin əldə edilməsi Prezident İlham Əliyevin diplomatik məharəti və Azərbaycan diplomatiyasının növbəti uğurudur. Heç kimə sirr deyil ki, ermənilər indiyədək müxtəlif bəhanələr gətirərək, həmin xəritələri bir müddətdir Azərbaycana verməkdən imtina edirdilər. Məqsəd isə bəllidir; daha çox azərbaycanlı həyatını itirsin. Çünki cənab prezidentin sərəncam və tapşırıqlarıyla Qarabağ indi böyük bir tikinti meydançasını xatırladır. Təsəvvür edin, yollar tikilir, körpülər salınır, bu və ya digər dövlət qurumları infrastruktur layihələri həyata keçirirlər. Bu gün Ağdamdan sonra ən böyük infrastruktur layihələrinin Füzulidə həyata keçirilməsi, Füzulinin strateji əhəmiyyət kəsb etməsi, bütün yolnəqliyyat infrastrukturunun bu ərazidən keçməsini nəzərə alsaq, Azərbaycanın bu xəritələri əldə etməsinin hansı səviyyədə uğurlu olması heç kimdə şübhə doğurmamalıdır.



**Füzuli və Zəngilanın mina xəritələrinin Ermənistandan alınması Azərbaycanın beynəlxalq siyasətdəki uğurunun təzahürüdür**

### Bütün şərtləri qaliblər diktə edir

Azərbaycan Prezidenti İlham Əliyev də bütün şərtləri diktə edən tərəfdir. Çünki Azərbaycan Vətən müharibəsində qalib gəlib və hazırda şərtləri diktə edən tərəfdir. Hazırda prioritet vəzifə ərazilərin minalardan təmizlənməsini daha tez başa çatdırmaqdır. Ermənistan otuz il işğal altında saxladığı ərazilərdə çoxlu mina basdırıb və onların xəritəsini gizlədir. Minatəmizləmə ilə əlaqədar xarici ölkələrin təcrübələrinə baxsaq görərik ki, bu iş uzunmüddətlidir. Lakin Azərbaycan Prezidentinin qətiyyətli, planlı, diplamatik siyasət aparmasının nəticəsi olaraq 7 ay keçən Zəfər qələbəmiz müddətində artıq işğaldan azad olunan z rayonumuzun Ağdam, Füzuli və zəngilan rayonlarının mina xəritələri Azərbaycana təhvil verildi. Bütün bu uğurlu nəticələr Ali Baş Komandan, Prezident İlham Əliyevin qətiyyətli, parlaq diplomatik qələbəsidir. Prezident İlham Əliyevin dediyi kimi: "Azərbaycanın diktəsi ilə hərəkət etməkdən başqa bir çarəsi yoxdur, bunu öz xoşları ilə etməsələr, məcburən etdirəcəyik".

Dövlət başçısı hər dəfə bəyan elədi ki, Ermənistan bizə bütün yüz minlərlə minaların xəritəsini verməlidir. Əgər onlar bunu etməsələr, bu, bir daha bu ölkənin terrorçu xislətini nümayiş etdirəcək. Beləliklə, həm dövlət başçısı səviyyəsində, həm də ayrı-ayrı ekspertlər, siyasi xadimlər, eləcə də yerli və beynəlxalq medianın bu məsələdə nümayiş etdirdiyi həssaslıq öz bəhrəsini verdi. Bu gün Ağdamın, Füzuli və Zəngilanın mina xəritələrinin alınması Azərbaycanın beynəlxalq siyasətdəki uğurunun təzahürüdür.

Doğrudur, Ermənistan israrla belə bir xəritələrin varlığını inkar edirdi. Hətta 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanatın tələblərinə də hörmətsizlik edərək qeyri-konstruktiv mövqe sərgiləyirdi. Lakin seçki öncəsi ölkədə yaşanan xaotik vəziyyətdən çıxış yolu tapmayan Ermənistan, nəhayət, yenidən Azərbaycanla hesablaşmağa məcbur oldu. Artıq Azərbaycanın diktəsi ilə hərəkət etməkdən başqa bir çarəsi yoxdur. Prezident İlham Əliyevin dediyi kimi, bunu öz xoşları ilə etməsələr, məcburən etdirəcəyik. Çünki Azərbaycan hər şeydən öncə sivil yolu, beynəlxalq normaları əsas götürür. Necə ki, dövlət başçısı bütün beynəlxalq platformalarda beynəlxalq ictimaiyyətdən bu məsələyə müdaxilə etməyi, Ermənistandan qeyri-insani siyasətindən imtina etməyi tələb etdi. Bu gün ABŞ Dövlət Departamentinin, eləcə də Avropa Birliyinin bu məsələdə fəal iştirak etməsi və Ermənistanın minalanmış ərazilərin xəritələrini verməyə razılaşmaq məcburiyyətində qalması Prezident İlham Əliyevin bu strateji siyasətinin nəticəsidir. Beləliklə, Prezident İlham Əliyevin strateji və taktiki siyasi xətti davam edir. Çünki qarşıda hələ çox işlər durur. Ermənistan da zənn etməməlidir ki, Ağdam, Füzuli və Zəngilanla hər şey bitmədi, işğaldan azad olunan digər rayonlara basdırılan minaların da xəritəsi təktək Azərbaycana təhvil verilməlidir. Bunu məcbur qalmadan etsə, hər şey bu ölkənin özü üçün də faydalı olacaq. Bir sözlə, zaman bizim xeyrimizə işləyib və bundan sonra da belə olacaq. Çünki biz qalib tərəfik və şərtləri də biz bəyan edirik!

***RƏFİQƏ KAMALQIZI***

## Azərbaycan-İran sərhədində atışma olub, ölən var



İyul ayının 5-də saat 23:45 radələrində Dövlət Sərhəd Xidmətinin (DSX) Sərhəd Qoşunlarının "Göytəpə" sərhəd dəstəsinin Cəlilabad rayonunun Sərxanlı kəndi yaxınlığındakı sərhəd zastavasının xidməti ərazisində 5 nəfər naməlum şəxsin İrandan Azərbaycan istiqamətində dövlət sərhədini pozması sərhəd naryadı tərəfindən aşkar olunub. DSX-dən SİA-ya verilən məlumata görə, sərhəd pozucularının silah və gecə görmə cihazları ilə silahlanması, onlardan birinin üzərində içərisində narkotik vasitə olması ehtimal edilən 1 ədəd çanta müşahidə edilib.

Sərhəd zastavası "Silaha" komandası üzrə qaldırılıb, xidməti ərazi qapadılıb. Sərhəd naryadı tərəfindən "Dayan" əmrinin verilməsinə və havaya xəbərdarlıq atəşi açılmasına baxmayaraq, sərhəd pozucuları əmrə tabe olmayaraq silahlı müqavimət göstərib və avtomat silahdan atəş açaraq sərhədçilərin həyatına qəsd ediblər.

Sərhəd pozucularının təqibi zamanı sərhəd naryadı tərəfindən "Azərbaycan Respublikasının dövlət sərhədi haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq silah tətbiq olunub, sərhəd pozucularından biri - hüquq mühafizə orqanlarının axtarışında olan Azərbaycan vətəndaşı 1992-ci il təvəllüdlü Qurbanov Məzahir Sahil oğlu güllə yarası almış, ona ilkin yardım göstərilərək Cəlilabad rayon mərkəzi xəstəxanaya təxliyə edilməsi, lakin sərhəd pozucusu yolda ölüb. Digər sərhəd pozucuları ərazinin sıx meşəlik, hava şəraitinin qaranlıq olmasından istifadə edərək geri İran ərazisinə qaçıblar.

Əraziyə baxış zamanı sərhəd pozucularının qanunsuz yolla AR ərazisinə keçirdilkəri 1 ədəd çantada təxmini çəkisi 6895 qram narkotik vasitəyə bənzər maddələr (4065 qram - heroin, 1385 qram - tiryək, 325 qram - metamfetamin, 1000 ədəd metadon-40 həbi, 260 ədəd preqabalin) və dərman preparatları (10 ampula - ravit 8, 30 kapsula - wellman, 10 ampula - testosterone) aşkar olunaraq götürülüb.

Bu barədə İİR tərəfi dərhal məlumatlandırılıb, hadisə yerində Azərbaycan və İran sərhəd nümayəndələrinin görüşü keçirilib. Hazırda Dövlət Sərhəd Xidmətinin və Baş Prokurorluğun əməkdaşları tərəfindən hadisə ilə əlaqədar zəruri əməliyyat-istintaq hərəkətləri həyata keçirilir.

## "Revanşistlər unutmasınlar ki, dəmir yumruq bu dəfə daha bərk dəyə bilər"



"Düşünürəm ki, Ermənistanın son günlər həyata keçirdiyi təxribatlar davam edəcək. Çünki Paşinyan andiçmə mərasimini həyata keçirməyib və məhz buna görə də o, Ali Baş Komandan kimi ordunu idarə edə bilmir. Bundan əlavə revanşist qüvvələr də öz məkrli planlarını həyata keçirmək üçün bu addımları atırlar". Bunu SİA-ya açıqlamasında Milli Məclisin deputatı Arzu Nağıyev deyib.

Deputatın sözlərinə görə, bu gün Ermənistanın Baş Qərargahında müxtəlif qüvvələrə tabe olan qoşunlar, əsgərlər, zabitlər var: "Onlar da bu proseslərdə iştirak edirlər. Fikrimcə, bütün bunlar Sarqsyanın, Koçaryanın, yəni Qarabağ klanının işləridir. Onlar çalışırlar ki, Azərbaycan ordusunu bu təxribatlara cəlb etsinlər. Lakin Azərbaycan Ordusu bu təxribatlara uymur, onlar ordumuz tərəfindən gəldikləri kimi də qovularaq çıxarılırlar. Gündəmdə olan digər məsələ isə Azərbaycan, Rusiya və Ermənistan arasında delimitasiya üzrə komissiyanın yaradılmasıdır. Bu məsələ barədə Rusiya rəhbərliyi danışıb və eyni zamanda Azərbaycan tərəfi də təkliflər edir. Yəni, sözügedən komissiya yaradıldıqdan sonra keçmiş sovet respublikaları arasındakı sərhədə uyğun olaraq xəritələr, ən son texnologiyalardan istifadə etməklə delimitasiya, sonra isə demarkasiya məsələsi həyata keçiriləcək. Bu da təbii ki, Erməniləri razı sala bilməz. Çünki əsas yüksəkliklər, digər ciddi kommunikasiyalar Azərbaycanın ərazisinə düşür. Məhz bütün bunlara görə, erməni tərəfi bu prosesi gecikdirməyə çalışır".

A.Nağıyev vurğulayıb ki, Ermənistan daxilində olan xaotik, siyasi böhran vəziyyəti get-gedə dərinləşməkdədir: "Müxtəlif siyasi partiyalar seçkilərin nəticələri ilə razılaşmırlar. Ən böyük problemlərdən biri də revanşist qüvvələrin məhz bu seçkilərdə məğlub olmasıdır. Ermənin xalqı özü üçün pisin yaxşısını seçdi. Lakin seçicilər bir daha başa düşür ki, böyük müharibədənsə, sülh daha yaxşıdır və onlar sülhə səs verdilər. Paşinyan andiçmə prosesindən sonra istər həbslərlə bağlı, istər yeni hökumətin formalaşmasından sonra Koçaryan-Sarqsyan və onların tərəfdarları ilə bağlı müvafiq qərarlar qəbul edəcək. Əks halda unutmasınlar ki, məhz həmin o dəmir yumruq daim onların başlarının üstündədir və bu dəfə daha bərk dəyə bilər. Bugünkü proseslər, əsasən təxribatlar hamısı siyasi məsələlərlə əlaqədardır".

***Aysel Məmmədova***

## Yəmənli jurnalist: Azərbaycan intibah dövrünü yaşayır



Müxtəlif sahələrdə böyük nailiyyətlər əldə edən və beynəlxalq nüfuzu artan Azərbaycan bu gün sözün əsl mənasında intibah dövrünü yaşayır. Qədim tarixə malik olan Azərbaycan xalqı müasir zamanla da ayaqlaşaraq iqtisadi, mədəni, sosial və təhsil sahələrində yeni uğurlar qazanır, digər ölkələrə örnək olur. AZƏRTAC xəbər verir ki, bu fikirlər yəmənli jurnalist Əbdülhəmid Əl-Kəbinin "Əl Hərir" informasiya portalına yazdığı "Azərbaycanlıların həyat dərsləri" sərlövhəli məqaləsində yer alıb. Müəllif yazır: "Müasir Azərbaycanın intibah dövrünü yaşamasının əsas amili insanların öz işinə məsuliyyətlə yanaşması, yüksək nizam-intizam, həmçinin gələcəyə olan böyük inamıdır. Azərbaycanlıların intellekt səviyyəsi çox yüksəkdir və bu ölkədə elmin, təhsilin inkişafına dövlət qayğısı var. Qədim zamanlardan elm, ədəbiyyat, musiqi və digər sahələrdə Şərq sivilizasiyasına görkəmli şəxsiyyətlər bəxş etmiş Azərbaycan xalqı bu ənənəni indi də davam etdirir. Müasir dövrün tələblərinə uyğun olaraq, azərbaycanlılar texnologiya və kosmos sahələrində də uğurlar qazanırlar. Əsası dahi siyasətçi Heydər Əliyev tərəfindən qoyulmuş və Prezident İlham Əliyevin uğurla davam etdirdiyi siyasi kursun nəticəsində ciddi islahatlar aparılıb və hazırda onlar davam etdirilir".

Yəmənli jurnalist yazır ki, Azərbaycanda xalq ilə hakimiyyət arasında mövcud olan yüksək etimad qazanılmış uğurların rəhnidir. Eyni zamanda, ölkədə yaşayan müxtəlif etnik qruplar, dinlər arasında dözümlülük və dialoq cəmiyyət həyatında unikal bir ahəng yaradıb. Dini və etnik mənsubiyyətindən asılı olmayaraq, bütün vətəndaşlar öz ölkəsinin tərəqqisi naminə çalışırlar.

# Zəngəzur dəhlizi: regional və qlobal geosiyasətdə yeri və rolu

***Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın İkinci Qarabağ müharibəsində əldə etdiyi şanlı qələbə geniş geosiyasi məkanda ciddi dəyişikliyə səbəb olub. Bu prosesin fonunda Zəngəzurdan - tarixi Azərbaycan torpağından keçəcək və Azərbaycanın əsas ərazisini ölkənin ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikası, eləcə də Türkiyə ilə birləşdirəcək yeni birləşdirici dəhlizin əhəmiyyəti aydın nəzərə çarpır. O cümlədən müxtəlif dövlətlərin bu məsələyə münasibəti, regional və qlobal əməkdaşlıq kontekstində dəhlizin meydana gətirə biləcəyi yeni məqamlar, Azərbaycanın müstəqil dövlət kimi fəaliyyətinin məzmunu kimi məsələlərin aktuallaşdığı şübhəsizdir. Həmin bucaq altında Zəngəzur dəhlizinin reallaşmasının geosiyasi analizi də çox aktualdır. Ekspertlər bu məsələ ilə bağlı öz fikirlərini ifadə edir, müəyyən proqnozlar verirlər. Maraqlıdır ki, proqnozların mütləq çoxluğu Zəngəzur dəhlizinin regional əməkdaşlıqda müstəsna rol oynayacağına olan inamla bağlıdır. Bütün bunların fonunda Zəngəzur dəhlizinin geosiyasi, geoiqtisadi, nəqliyyat-logistika və coğrafi aspektlərdə təhlilinin zəruriliyi daha aydın görünür. Biz məsələnin bu tərəfi üzərində geniş dayanmaq istərdik.***




## Zəngəzur dəhlizi tarixi və geosiyasi reallıqlar işığında

Ermənistanla Azərbaycan arasında ötən il sentyabrın 27-də başlamış və 44 gün davam etmiş İkinci Qarabağ müharibəsi Azərbaycanın böyük zəfəri ilə başa çatandan sonra ekspertlərin daha çox müzakirə etdikləri məsələlər sırasında Zəngəzur dəhlizi də vardır. Bu məsələyə maraq nəinki azalmayıb, əksinə, ortaya onun əhəmiyyətini daha da qabardan yeni-yeni faktlar çıxmaqdadır. Dünyanın tanınmış siyasətçiləri və ekspertlər Zəngəzur dəhlizi ilə bağlı fikirlər bildirirlər.

Bunlar səbəbsiz deyil. Çünki Zəngəzur dəhlizi həm tarixi aspektdə, həm müasir geosiyasi reallıqlar prizmasından, həm də Cənubi Qafqazda sülh, barış və əməkdaşlığın bərpa olunmasında prinsipial əhəmiyyət daşıyır. Bu məsələ ərafında baş verən hadisələr göstərir ki, o, çoxparametrli, müxtəlif sahələri əhatə edən faktorlarla əlaqəlidir. Burada geosiyasi, siyasi, ideoloji, coğrafi, iqtisadi, sosial-mədəni, hüquqi və təhlükəsizlik məqamları bir-biri ilə çulğaşıb. Məhz həmin səbəbdən Zəngəzur dəhlizinin işə salınması adi hadisə deyil - onun arxasında müxtəlif vacib faktorlar dayanır.

Bu mülahizələr prizmasından Zəngəzur dəhlizi ilə əlaqəli olan bir sıra əhəmiyyətli məqamlara nəzər salmağa çalışaq. Hər şeydən öncə, Zəngəzurun son 300 illik tarixinin özəlliyini vurğulamaq lazımdır. Rusiya imperiyasının Cənubi Qafqaza gəlişi burada bir sıra ərazi-inzibati dəyişikliklərə səbəb oldu. Xüsusilə Azərbaycana aid olan ərazilərlə bağlı süni manipulyasiyalar çoxaldı. Keçən əsrin ilk onilliklərində Zəngəzurda da erməni terrorunun yaratdığı qanlı hadisələr baş verdi. Terrorçu Njde xüsusi amansızlığı ilə seçilirdi. Nəticədə 100 minlərlə türk yaşadıqları Zəngəzur ərazisindən deportasiya olundular. Sovetlərin gəlişi ilə isə Zəngəzuru süni yaradılan Ermənistan SSR-in ərazisi etdilər. Bununla da regionda tarixi və coğrafi bütövlük pozuldu.

Tarixən ticari-iqtisadi və mədəni-mənəvi ünsiyyətin əsas yollarından biri olan qədim Azərbaycan torpağı Zəngəzur, keçən əsrin 20-ci illərindən 2020-ci ilə qədər türk dünyasını ayıran, azərbaycanlı qardaşları bir-birindən təcrid edən, bölgə xalqlarının əlaqələrini kəsən, dünya ticarətinin bu coğrafiyadakı yoluna ciddi əngəl olan bir məkana çevrildi. Məhz bu reallıq prizmasından İkinci Qarabağ müharibəsinin Zəngəzur məsələsində nəinki region, hətta bütün dünya, o cümlədən türk dünyası üçün açdığı yeni imkanları tam təsəvvür etmək mümkündür.

Təsadüfi deyil ki, Çinin müxtəlif KİV orqanları, siyasətçiləri, analitikləri, iş adamları "Bir kəmər, bir yol" layihəsi çərçivəsində həmişə "Orta yol" adlandırdıqları nəqliyyat dəhlizinə ciddi önəm verir və həmin kontekstdə son zamanlar Zəngəzur dəhlizini mütləq vurğulayırlar. Bu dəhliz Azərbaycan, Ermənistan, Türkiyə, Rusiya və İranla yanaşı, Asiya-Sakit okean regionu ölkələrinə də böyük fayda verə bilər. Təbii ki, burada Çinin qazana biləcəyi daha çoxdur.

Təsadüfi deyil ki, Azərbaycan Prezidenti İlham Əliyev Asiya-Sakit okean regionu ölkələrini Zəngəzur dəhlizinin yaradılması imkanlarına diqqətlə yanaşmağa dəvət edib. İlham Əliyev bu barədə BMT-nin Asiya və Sakit okean üçün İqtisadi və Sosial Komissiyasının "Asiya və Sakit okean hövzəsində regional əməkdaşlıq vasitəsilə böhranlardan sonra daha güclü inkişafın təmin olunması" mövzusuna həsr edilən 77-ci sessiyasındakı çıxışında konkret fikir bildirib. Azərbaycan Prezidenti vurğulayıb: "Azərbaycan regionda dayanıqlı sülh və təhlükəsizliyi təmin etmək arzusundadır. Azərbaycan Şərq-Qərb, Şimal-Cənub, Şimal-Qərb nəqliyyat dəhlizləri kimi regional bağlantı layihələrinin icrasına mühüm töhfə vermişdir. Hazırda biz Azərbaycan ərazisindən Asiyanı Avropa ilə birləşdirən Şərq-Qərb dəhlizinin tərkib hissəsi olacaq "Zəngəzur nəqliyyat dəhlizi" üzərində çalışırıq. Bu dəhliz Azərbaycana Avrasiyanın nəqliyyat və logistika mərkəzi kimi mövqeyini gücləndirməyə imkan verəcək. Mən Asiya və Sakit okean hövzəsindən olan tərəfdaş ölkələri bu regional layihənin potensialını nəzərdən keçirməyə dəvət edirəm".

Lakin bütün bunların reallaşması Zəngəzur dəhlizinin region ölkələri üçün oynadığı roldan birbaşa asılıdır. Azərbaycan Prezidenti İlham Əliyev bu aspektdə ifadə etdiyi fikir açar rolunu oynayır. Dövlət başçısı vurğulayıb: "Bu gün biz onu müzakirə edirik ki, bölgədə davamlı, dayanıqlı sülh və təhlükəsizlik olsun. Bunun yeganə yolu isə əməkdaşlıqdır. Bizim məqsədimiz artıq üçtərəfli qaydada - Ermənistan və Rusiya ilə birlikdə kommunikasiyaların bərpası, Zəngəzur dəhlizinin yaradılması və nəqliyyat baxımından bütün maneələri aradan qaldırmaqdır".

Mövqe aydındır - Azərbaycanın dövlət başçısı Zəngəzur dəhlizini əməkdaşlıq, təhlükəsizlik, tarixi ədalətin bərpası, qlobal ələqələrin davamlı olması istiqamətində atılmalı olan vacib addım kimi təqdim edir. Bunun da son dərəcə tutarlı əsasları vardır. Məsələ ondan ibarətdir ki, Zəngəzur dəhlizi hər şeydən əvvəl regional əməkdaşlıq qarşısında illərdir dayanan maneələrin aradan qaldırılmasına xidmət etməlidir. Burada məsələnin bir tərəfi Qarabağın Azərbaycana reinteqrasiyası ilə bağlıdırsa, digər aspekti kommunikasiyaların açılmasını əhatə edir. Hər iki məsələ isə regional əməkdaşlığa və sabitliyə imkan yaradacaq uyğun sazişin imzalanması ilə əlaqəlidir. Konkret olaraq Ermənistan sərhədlərin delimitasiyası və demarkasiyasını, ərazi bütövlüyünün tanınmasını və regional əməkdaşlığı nəzərdə tutan uyğun sənədləri imzalamalıdır. Belə çıxır ki, Zəngəzur dəhlizi son nəticədə bütövlükdə regional əməkdaşlığın parlaq nümunəsi olmalıdır. O ciddi, ədalətli, hüquqi cəhətdən normal qaydalara əsaslanmalıdır. Ekspertlər bu səbəbdən Zəngəzur dəhlizini yalnız geosiyasi deyil, həm də siyasi, hüquqi, iqtisadi, nəqliyyat-logistika və digər faktorlarla əlaqədə analiz edirlər.

## Qarabağın bərpasında Zəngəzur dəhlizinin əhəmiyyəti: ilk addımlar fonunda

Bunların fonunda Azərbaycan rəhbərliyinin Qarabağın bərpası və ölkəyə reinteqrasiyası üçün qətiyyətli addımlar atması çox vacib faktordur. Artıq Azərbaycan dövləti bərpa işlərinə 1,3 milyard ABŞ dolları həcmində vəsait ayırıb. Paralel olaraq dünyanın müxtəlif ölkələrinin şirkətlərinin bərpa işlərində iştirakı təmin edir. Hazırda bir neçə dövləti təmsil edən şirkətlər müxtəlif sferalar üzrə fəaliyyətə başlayıblar. O cümlədən "ağıllı şəhər", "ağıllı qəsəbə", "ağıllı kənd" kimi maraqlı layihələr gündəmdədir. Hava limanları-

# Zəngəzur dəhlizi: regional və qlobal geosiyasətdə yeri və rolu

nın tikilməsi, yolların çəkilməsi, turizm sektoruna aid işlərin görülməsi, müxtəlif istehsal müəssisələrinin yaradılması, təbii ehtiyatların istifadəsinin inkişaf etdirilməsi və s. kimi mühüm proqramlar reallaşmaqdadır. İqtisadi və maliyyə tərəfindən başqa, bu prosesin çox əhəmiyyətli geosiyasi və tranzit-logistika aspekti də var. Çünki dünyanın müxtəlif ölkələri bərpa və yenidənqurma işlərinə həvəslə daxil olurlarsa, mütləq uyğun, sabit, təhlükəsiz hərəkət dəhlizinə ehtiyac da artır. Zəngəzur dəhlizi bu bağlılıqda da dünya üçün strateji əhəmiyyət kəsb edir.

Vurğulanan fikirlərin işığında Zəngəzur dəhlizini ekspertlərin beynəlxalq əməkdaşlıq layihələri və onların reallaşmasına birbaşa aidiyyəti olan nəqliyyat marşrutları ilə əlaqələndirmələri tamamilə məntiqli, obyektiv və əhəmiyyətlidir. Məsələnin bu aspekti üzərində daha geniş dayanmağa ehtiyac vardır.

Ekspertlər Çinin "Bir kəmər, bir yol" layihəsinin qlobal geosiyasi və geoiqtisadi düzəni yeniləşdirə biləcəyinə inanırlar. Layihə quru və dəniz marşrutları üzrə müxtəlif ölkələri əhatə edən nəhəng bir sistemi xatırladır. Həmin prosesə Asiya və Avropanın çoxlu sayda dövləti qatılmaqdadır. Layihə üçün xüsusi əhəmiyyət kəsb edən məsələlərdən biri ticari-iqtisadi əlaqələrin ucuz, təhlükəsiz, sürətli yolla təşkil edilməsindən ibarətdir. Bu məqsədlə dövriyyəyə şərti olaraq "Şimal yolu", "Orta yol" və "Cənub yolu" kimi terminlər də daxil edilib. "Şimal yolu" Rusiya ərazisindən keçərək Avropaya uzanan, "Orta yol" Mərkəzi Asiya-Azərbaycan-Gürcüstan-Türkiyəni əhatə edən marşrutu, "Cənub yolu" isə Cənubi Asiya ölkələri ərazisindən keçərək İranı da əhatə edən istiqamətdir.

Məsələ burasındadır ki, bu üç əsas yol Cənubi Qafqazda Azərbaycan ərazisində kəsişir. Rusiyadan "Şimal-Cənub" dəhlizi vasitəsilə Azərbaycana istiqamət vardır, Mərkəzi Asiyadan gələn əsas yol - "Şərq-Qərb" dəhlizi timsalında Azərbaycandan keçir, "Cənub yolu" isə "Cənub-Qərb" marşrutu ilə yenə də Azərbaycan ərazisindən keçir. Sonuncu üçün Azərbaycanda iki istiqamət mövcuddur: biri Gürcüstan istiqaməti, digəri isə Zəngəzur vasitəsilə Türkiyə-Avropa istiqaməti. Eyni zamanda, cənubdan gələn yolun bir qolu şimala, Rusiyaya tərəf ayrıla bilər. Buna oxşar qaydada ilə Türkiyədən gələn yolun bir istiqaməti İran, digər istiqaməti isə Rusiya ola bilər. Onların arasında isə tamamilə Azərbaycan ərazisindən keçməklə Mərkəzi Asiyaya uzanan marşrut vardır. Bunlardan başqa, "Bir kəmər, bir yol" layihəsi çərçivəsində "Şimal-Cənub" və "Cənub-Qərb" marşrutlarının Azərbaycan ərazisində kəsişərək Zəngəzur dəhlizi vasitəsilə Avropaya yönləndirilməsi planı da mövcuddur.

Beləliklə, beynəlxalq layihələr üçün Azərbaycan ərazisi sözün əsl mənasında regionun nəqliyyat qovşaqlarının habı rolunu oynayır. Zəngəzur dəhlizi bu baxımdan Azərbaycanı bir neçə istiqamətdə region, Asiya və Avropa ilə birləşdirən strateji məkan statusuna ala bilər. Təcrübə göstərir ki, faktiki olaraq, dünyanın böyük gücləri Zəngəzur dəhlizinin bu funksiyasını artıq qəbul edib ona dəstək ifadə edirlər.

ABŞ və Rusiya prezidentlərinin son görüşündə Cənubi Qafqazda kommunikasiya xətlərinin açılması zərurəti bir daha vurğulanıb. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Rusiya və ABŞ prezidentləri ilə bu məsələni müzakirə edib, ortaq razılığa gəlinib. Türkiyə və Azərbaycan rəhbərliyi məsələni daim gündəmdə saxlayır. Son olaraq Azərbaycan və Türkiyə Prezidentləri tərəfindən imzalanan müttəfiqlik haqqında birgə Şuşa Bəyannaməsində də Zəngəzur dəhlizi müddəa kimi nəzərdə tutulub. İki qardaş ölkə Zəngəzur dəhlizini reallaşdırmaqda qərarlıdır.

Azərbaycan Prezidenti Rusiya dövlət başçısı ilə mütəmadi olaraq bu məsələni müzakirə edir. Vladimir Putinin də Zəngəzur dəhlizinin açılması ilə bağlı mövqeyi qətidir. Ermənistanda parlament seçkisindən sonra Rusiya rəhbəri Nikol Paşinyana bir daha xatırladıb ki, Rusiya, Azərbaycan və Ermənistan liderlərinin 2020-ci il 10 noyabr tarixli bəyanatında nəzərdə tutulan öhdəliklərə əməl olunmalıdır. Orada kommunikasiya xətlərinin açılması prinsipial qaydada vurğulanıb.

Bunlar onu göstərir ki, Zəngəzur dəhlizi regional əməkdaşlıq və beynəlxalq layihələrin icrası aspektlərində böyük dövlətlər üçün də əhəmiyyət kəsb edir. Bu marşruta müxtəlif istiqamətlərdə əməkdaşlığın mühüm bəndlərindən biri kimi baxılır.

Əhəmiyyətlidir ki, region dövlətlərinin Zəngəzur dəhlizi də daxil olmaqla, bütün kommunikasiya şəbəkəsindən səmərəli və koordinasiyalı istifadə edilməsinə imkan verən əməkdaşlıq formatı haqqında təklifin də təşəbbüskarı Azərbaycandır. Söhbət artıq ekspertlərin də maraqla müzakirə etdiyi "Altılıq" platformasından gedir. Burada Azərbaycan, Rusiya, Türkiyə, İran, Gürcüstan və Ermənistanın əməkdaşlıq və təhlükəsizlik sahələrində ortaq fəaliyyət göstərmək üçün xüsusi platformada birləşməsi nəzərdə tutulub. Yəni, bu ölkələr regiondan kənarda olan qüvvələrlə əməkdaşlıq və təhlükəsizlik məsələlərində razılaşdırılmış formada və bir əməkdaşlıq formatının üzvləri kimi iştirak etməlidirlər. Deməli, Zəngəzur dəhlizi həmin altı dövlət üçün geosiyasi və geoiqtisadi aspektlərdə eyni dərəcədə əhəmiyyət kəsb edir və onun təhlükəsizliyi onların hər birinin vəzifəsidir.

## Regional əməkdaşlıq formulu və Zəngəzur dəhlizi: müstəqil Azərbaycanın daha bir uğuru

Eyni zamanda, gələcəkdə regionun altı dövləti müxtəlif beynəlxalq layihələrdə bir tam kimi iştirak edə bilərlər. Bu isə, birincisi, regional təhlükəsizliyin davamlı təminatı, ikincisi, regional əməkdaşlıqla qlobal əməkdaşlıq arasında sağlam əlaqənin yaradılması deməkdir. Bu prosesin mərkəzində Zəngəzur dəhlizinin dayandığını təsəvvür etmək çətin deyil. Son zamanlar İran mətbuatında yayılan bir sıra informasiyalar bu aspektdə maraq doğurur.

"Qafqaz.ir" portalında dərc edilən yazılardan birində Ermənistan-Azərbaycan münaqişəsinin həll edilməsi fonunda Çinin region ölkələri ilə əlaqəsinin Zəngəzur dəhlizi kontekstində müəyyən xarakteristikası verilib. Çinin Avropa ilə ticarətinin 96 faizinin okean vasitəsilə həyata keçirilməsinə baxmayaraq, 2013-cü ildə "Bir kəmər, bir yol" təşəbbüsündən sonra Cənubi Qafqazın əhəmiyyəti Pekin üçün çox artıb. Buna görədir ki, Çin "Şərq-Qərb" marşrutu kimi tanınan Transxəzər Beynəlxalq Nəqliyyat Dəhlizi (TITR) layihəsinə investisiya qoymağa başlayıb. Həmin bağlılıqda rəsmi Pekin Avropaya açılan istənilən təhlükəsiz marşruta ciddi dəstək verir.

Şübhəsiz ki, Çin-Rusiya-İran-Azərbaycan xəttində mühüm məntəqə olan Zəngəzur dəhlizi də Pekin üçün Türkiyə vasitəsilə Avropa və Körfəz ölkələrinə, Afrikaya yeni imkan deməkdir. Bu marşrut həm ucuz, həm də digərlərinə nisbətən qısadır. Bu reallıq fonunda Çinlə Azərbaycan arasında ticarət dövriyyəsinin 2017-ci ildə 1,3 milyard ABŞ dolları (Azərbaycanın ümumi xarici ticarətinin təxminən 6 faizi) həcminə çatması təsadüfi deyil. Eyni qaydada rəsmi Pekin digər region ölkələri ilə əməkdaşlığı genişləndirməyə çalışır və böyük sərmayələr yatırır.

Lakin bütün bunlardan qonşu ölkənin mətbuatında yanlış bir nəticə çıxarılır. Bir tərəfdən, Çinin Zəngəzur dəhlizinin açılması üçün ciddi maraqlarının olduğu vurğulanır, digər tərəfdən isə İranın bu prosesdən zərər görə biləcəyi iddia edilir. Guya Tehranın manevr imkanları məhdudlaşa bilər. Əslində isə Zəngəzur dəhlizinin işləməsi İran üçün də yeni manevr imkanları açır. Çünki Tehran, faktiki olaraq, bir neçə dövlətin ortaq razılığı ilə işləyəcək Zəngəzur dəhlizi vasitəsilə dünyanın ən ucqar ölkələri ilə iqtisadi-ticari əlaqələr qurmaq üçün yeni şans əldə edir.

O başqa məsələdir ki, artıq Cənubi Qafqazda hansısa dövlətin hegemon davranışına son qoyulur. Burada Azərbaycan, Rusiya, Türkiyə və İran bir yerdə aparıcı rol oynamalıdırlar. Bundan kimsənin rahatsız olmasına isə heç bir əsas yoxdur. Həmin bucaq altında Gürcüstanda da bir sıra dairələrin Zəngəzur dəhlizinə ehtiyatla yanaşmasının ciddi geosiyasi, geoiqtisadi və kommunikativ əsası olmadığını düşünürük. Azərbaycan Prezidenti dəfələrlə məsələnin bu aspektinə vurğu edib. Prezident İlham Əliyev ifadə edib ki, Gürcüstan Azərbaycana dost və qardaş ölkədir və onunla əməkdaşlığın inkişaf etdirilməsi üçün bundan sonra da fəallıq göstəriləcək.

O cümlədən Zəngəzur dəhlizinin açılması Gürcüstan marşrutuna alternativliyi deyil, onların bir-birini tamamlamasını ifadə edir. Çünki söhbət yalnız Azərbaycandan Gürcüstana yüklərin daşınmasından getmir. Gürcüstan həm özünün, həm Qara dəniz hövzəsi ölkələrinin, həm də Avropadan yüklərin Zəngəzur dəhlizi vasitəsilə İrana, Körfəz ölkələrinə və başqa regionlara münasib qiymətə çatdıra və bundan xeyli gəlir əldə edə bilər. Bu o deməkdir ki, Zəngəzur dəhlizi ancaq bir istiqamətə və seçilmiş hansısa ölkələrin mənafeyinə xidmət edəcək kanal olmayacaq - ondan bütün region ölkələri müxtəlif istiqamətlərdə yaradılacaq əlaqələr əsasında faydalanacaqlar.

Bunlar onu göstərir ki, regional və qlobal miqyasda Zəngəzur dəhlizinin işə düşməsi ciddi geosiyasi və geoiqtisadi yeniliklərə təkan verəcək. Bunlarla yanaşı, Zəngəzur dəhlizinin Azərbaycanın müstəqil dövlət olaraq beynəlxalq statusunun daha da yüksəlməsində əhəmiyyətli rolu olacağını düşünürük. Bu tezisin doğruluğunu bir neçə faktla sübut etmək olar. Hər şeydən öncə, İkinci Qarabağ müharibəsinin baş memarı Azərbaycan Prezidenti İlham Əliyev Zəngəzur dəhlizi məsələsində də kifayət qədər təşəbbüskar, praqmatik, ədalətli və beynəlxalq hüquq normaları çərçivəsində fəaliyyət göstərir. Hərbi əməliyyatların başa çatması ilə İlham Əliyev ardıcıl, məntiqli və inandırıcı surətdə regional əməkdaşlığın vacibliyini vurğulayır və həmin kontekstdə kommunikasiya xətlərinin açılması zərurətini önə çəkir.

Bununla yanaşı, Azərbaycan Prezidenti dünyaya Ermənistana qarşı son dərəcə humanist mövqe tutduğunu nümayiş etdirir. Artıq Ermənistanın ən qızğın havadarları belə İlham Əliyevin arqumentləri ilə razılaşırlar. Bunu may ayının 28-də Respublika Günü münasibəti ilə dünyanın nüfuzlu dövlətlərinin Azərbaycan rəhbərinə ünvanladıqları təbrik məktublarında həm də əməkdaşlığa maraqlı olduqlarını ifadə etmələri sübut edir. Ayrıca, Azərbaycanın dövlət başçısının Zəngəzur dəhlizindən danışanda, daim Ermənistanın da fayda götürəcəyini qeyd etməsi, rəsmi Bakının məsələyə qarşılıqlı faydalı əməkdaşlıq prizmasından yanaşdığını təsdiq edir.

Bunlardan başqa, Zəngəzur dəhlizi ilə bağlı rəsmi Bakının fəaliyyəti Azərbaycanın müstəqil dövlət kimi irəliyə doğru ciddi bir addım atdığını nümayiş etdirir. Belə ki, Rusiya və Türkiyə kimi böyük dövlətlərin başçıları Zəngəzur dəhlizinin açılmasını ilk növbədə müstəqil Azərbaycanın uğurlu xarici siyasətinin nəticələrindən biri kimi qəbul etdiklərini vurğulayırlar. Əslində, Şuşa Bəyannaməsində də həmin məqam öz əksini tapıb.

Vurğulanan məsələnin geosiyasi özəlliyi milli dövlətçilik baxımından çox əhəmiyyətli olan bir məqamı da ortaya qoyur. Biz müstəqil Azərbaycanın enerji sferasından sonra nəqliyyat-logistika və təhlükəsizlik sahələrində də regionun geosiyasi düzənini dəyişə bilən addım atdığını nəzərdə tuturuq. Yəni, artıq müstəqillik tarixində ikinci dəfədir ki, Azərbaycan geniş məkanda geosiyasi mənzərəni yeniləyə biləcək proqram həyata keçirir. Zəngəzur dəhlizi bu anlamda bir sıra ekspertlərin təsəvvür etdiklərindən daha geniş rakursda geosiyasi əhəmiyyətə malikdir. Bu fakt, əslində, digər uğurlarla yanaşı, Azərbaycanda müstəqil və demokratik dövlət quruculuğunun yeni səviyyəyə keçməsini ifadə edir. Əlbəttə, Zəngəzur dəhlizinin bu cür geosiyasi qiymətləndirilməsinin həm də tarixi-siyasi əhəmiyyəti vardır. Çünki Azərbaycan postsovet məkanında ilk dövlətdir ki, ərazi məsələsini dərin qatlarda geosiyasi, tarixi, siyasi, iqtisadi və mədəni aspektlərin vəhdəti kimi dünya gündəminə çıxara bilir. Bu məqam Azərbaycan Prezidentinin mövzu ilə bağlı hər bir çıxışında ana xətt kimi keçir.

Beləliklə, Zəngəzur dəhlizinin işə düşməsi, faktiki olaraq, dünya miqyasında mühüm tarixi hadisə kimi qəbul edilir. Onun müxtəlif aspektləri vardır. Lakin həmin aspektlər kompleks şəkildə Azərbaycanda müstəqil dövlət quruculuğu kursunun uğurlarını ifadə edir. Əhəmiyyətlidir ki, bu məqam bütövlükdə region və beynəlxalq aləm üçün pozitiv bir məqamı əks etdirir. Yəni, Azərbaycan müasir tarixi mərhələdə xalqların rifahının yaxşılaşmasına, dövlətlərin suverenliyinin möhkəmlənməsinə xidmət edən proqramlar həyata keçirir. Bu isə o deməkdir ki, Azərbaycan artıq dünya miqyasında müstəqil mövqeyi olan və sözünə qiymət verilən nüfuzlu dövlətdir!

***Kamal Adıgözəlov***
***Newtimes.az***

# Karyera, yoxsa ailə?

**Karyera, yoxsa ailə həyatı deyə bir sual hər zaman insanları düşündürüb, bu mövzu həmişə aktual olub və aktual olaraq da qalır. Bir sözlə, insanların seçim qarşısında qaldıqları məsələlərdən biri də məhz ailə və karyeradır. Heç şübhəsiz ki, karyera insan həyatında çox önəm kəsb edir və ehtimal ki, insanları da seçim qarşısında qoyan məhz budur. Etiraf edək ki, bu seçimə qarşı yanaşma da fərqlidir və cəmiyyətimizdə insanlar da bununla bağlı fərqli düşüncəyə malikdirlər.**

Bəzən karyeraya meyilli olan gənclər cəmiyyət qarşısında daha çox problemlərlə üzləşdikləri və bir çox hallarda qınanıldıqları qənaətindədirlər. Onlar özləri də elə zənn edirlər ki, insanlar, ələlxüsus onları buna görə qınayanlar onları başa düşmürlər. Əslində isə, bu, kifayət qədər individual yanaşmadır və fərdi olaraq hər kəs buna fərqli münasibət sərgiləyə bilər.

Azərbaycanda gənclər hazırda inkişafa çox meyllidir və bu heç də pis deyil. Gənclərin daha çox təhsil almaq, xaricdə öz təhsilini inkişaf etdirmək, karyera qurmaq istəyinin nəyi pisdir? Amma, etiraf edək ki, ailə qurmaqda gecikən, bunu ikinci plana keçirən gənclərə münasibət birmənalı deyil və məhz bu münasibətlər karyera qurmaq istəyən gənclərin qarşısına böyük bir sədd yaradır. Hətta bəzən gənclər öz ailələrinin, qohumlarının belə narazılıqları ilə üzləşirlər. Məsələn, gənclərin valideynləri istəyirlər ki, övladları tez ailə qursunlar, ailə-uşaq sahibi olsunlar və əlbəttə ki, bu da anlaşılan, başadüşüləndir.

Gənclərin karyeraya, yoxsa ailə qurmağa üstünlük verdiyini SİA



olaraq araşdırmaq qərarına gəldik və bununla əlaqədar gənclərə müraciət etdik. Təbii ki, müsahiblərimizin hər biri öz yanaşmasını ortaya qoydu və fikirlərini bizə bildirdi. İlk olaraq **Bakı Dövlət Universitetinin dördüncü kurs tələbəsi Ayşən Sadıxzadə** öz fikirlərini bizimlə bölüşdü.

"Məncə ailə qurmaq üçün tələsmək lazım deyil. Çünki, bu tələskənlik yalnış qərar verməyə səbəb ola bilər. İnsan müəyyən qədər özünü dərk etməli, məsuliyyətlərini anlamalı daha sonra ailə qurmaq haqqında düşünməlidir. Hal-hazırda mənim 20 yaşım var və düşünürəm ki, mənim üçün ailə qurmaqdan daha önəmli amil karyeradır. Məncə, xüsusilə də qızlar öz ayaqları üzərində durmağı bacarmalıdır. Bu çox vacibdir. Bəzi ailələr də var ki, övladlarını, xüsusilə də qızlarını erkən evlilik üçün məcbur edirlər. Bu cəhətdən çox şanslıyam. Bu gün qızların əksəriyyəti kariyera və ailə arasında seçim problemi ilə qarşılaşır. Karyeranın isə bir sıra müsbət və mənfi tərfləri var. Mənfi odur ki, boş vaxt demək olar ki olmur, dostlarla, ailə ilə əlaqə kəsilir və insan nisbətən ruhən yorulur. Həmçinin, düşünürəm ki, karyeralı xanımlar daha özgüvənli və baxımlı olur. Amma ən önəmlisi işlə ailəni qarışdırmamaqdır. Yəni, işə daha çox vaxt ayırıb ailəyə qarşı məsuliyyətsizlik etmək də düz deyil. Tarazlığı qorumaq lazımdır", deyə A.Sadıxzadə fikirlərini bildirdi.

Daha bir müsahibimiz, **Slavyan Universitetinin məzunu Şəb-**



**nəm İsgəndərova** da fikirlərini bizimlə paylaşdı və maraqlı bir yanaşma ilə fərqləndi.

"Karyera insanin hayatinda arzuladiqlarına çatmağin yoludur, deyə düşünürəm. Ailə isə insanı var edən, həyatda həmişə güvənib irəliləyə biləcəyi kiçik bir dovlətdir. Karyeranı həmişə qurmaq mümkündür. Ailə isə həyatda əlimizə düşən tək şansdir. Karyera insanı maddi cəhətdən hər hansı bir pilləyə gətirə bilər, lakin ailə həm maddi, həm mənəvi cəhətdən insanə yüksəklərə apara bilər. Ailə insana səmimiyyət mehribanliq və digər insani xüsusiyyətləri aşılaya bilər və insana həyat pəncərəsini ən gözəl formada ailə aça bilər", deyə Ş.İsgəndərova fərqli bir yanaşma sərgiləyib.

Rəyi soruşulanlar içərisində **Bakı Dövlət Universitetinin tələbəsi Arzu Qurbanzadə** karyera qurmaq istəyənlərin problemlə üzləşdiyini vurğulayıb. O, bəzi vali-



deynlərin öz övladlarının təhsil almalarına qəsdən şərait yaratmadığını da qeyd edib.

"Azərbaycanda gənclər inkişafa çox meyllidir. Fikrimcə, karyera insan həyatında daha çox önəm kəsb edir. Ona görə də bugünkü gənclər buna daha çox önəm verirlər. Amma, karyeraya meylli olan gənclər daha çox cəmiyyət qarşısında bəzi problemlərlə üzləşirlər, sanki qınaq mənbəyinə çevrilirlər. İnsanlar onları başa düşmürlər. Həmçinin ailə üzvləri də başa düşmək istəmirlər. Elə valideynlər var ki, uşaqlarının, xüsusən də qızlarının təhsil almaları üçün qəsdən şərait yaratmırlar. Onlar övladlarından gənc yaşda, tez bir şəkildə ailə qurub uşaq sahibi olmağı tələb edirlər. 17-18 yaşındakı bir qız nə başa düşür axır ailə qurmaq, evlənmək nə deməkdir?", deyə A.Qurbanzadə sual edib.



Digər bir müsahibimiz, **UNEK-in dördüncü kurs tələbəsi Ülkər Orucova** fikirlərini bizimlə bölüşüb və vurğulayıb ki, karyera quraraq ailəyə dəstək olmaq ailənin daha sağlam olmasına imkan verir.



"Mümkün qədər çalışmalı, kariyeramızı ilk öncə qurmalı və ən azından öz ayaqlarımızın üzərində durmağı bacardıqdan sonra ailə həyatı qurmalıyıq. Çünki günümüzdə vəziyyət getdikcə çətinləşir. Təhsilimizi almalı və işimizi qurmalıyıq. Əgər biz 11 il əziyyət çəkib universitetə qəbul olmuşuqsa, əsaslı səbəb olmadan niyə yarımçıq qoyaq? İlk öncə işləməli, qazanmağı öyrənməli və daha sonra ailə qurmalıyıq. Ən əsas səbəblərdən biri isə sabah başımıza nə gələcəyin bilmirik. Məncə ailə qurduqdan sonra yoldaşımızdan pul istəmək yerinə özümüz qazansaq və ailədə bir-birimizə dəstək olsaq, ailə daha sağlam olar", deyə Ü.Orucova düşündüklərini dilə gətirib.

Məsələnin hər zaman aktuallığını, insanların seçim qarşında qaldığını, ən azından bu məsələnin, bu sualın insanları düşündür-



düyünü nəzərə alaraq, bu barədə fikirlərini bildirməsi üçün **Jurnalist Ekspert Mərkəzinin sədri, sosioloq Ceyhun Musaoğluna** müraciət etdik. Mərkəzin sədri bildirdi ki, heç də karyeranı ailəyə, yaxud ailəni karyeraya qurban verməyə ehtiyac yoxdur və həyatımızda hər ikisinə paralel olaraq yer ayırmaq mümkündür.

"Əslində, ailə və karyera məsələsi 10-15 il bundan qabaq daha aktual idi və illər keçdikcə, dünya daha da müasirləşdikcə, Azərbaycan da buna uyğunlaşdıqca, görürük ki, ailəni karyeraya, ya da karyeranı ailəyə qurban vermək nə mental dəyərə, nə də dədə-baba qaydalarına uyğun gəlmir və birini digərinə qurban vermək olmaz. Bir sözlə, hər şeyin öz yeri var. Yəni, ailənin öz yeri var, karyeranın öz yeri. Ailə həyatının karyeraya niyə mənfi təsiri olmalıdır? İnsan ailə qura, bir neçə gündən sonra işinə çıxıb işini davam etdirə bilər və burda heç bir manea yoxdur. İnsan əgər alimdirsə belə, ailə həyatı qurandan sonra gedib öz tədqiqat işini götürüb onunla məşğul ola bilər. Ailə qurduqdan sonra qarşı tərəfin buna imkan və ya icazə verib-verməyəcəyi artıq tamam başqa məsələdir. Yaxud, nəzərə alına bilər ki, məsələn, kişilər ailə qurduqdan sonra işinə başı qarışıb ailə qayğılarını unuda bilərlər. Amma niyə axı belə olmalıdır? Birincisi, əgər ailədə tərəflərdən biri karyera qurursa, işləyirsə, bir addım da qabağa getmək istəyirsə, özünü cəmiyyətdə özünü sübut etmək istəyirsə, bunun müqabilində əmək haqqı alırsa, evin, ailənin iqtisadi məsələlərini həll edirsə, ailə büdcəsinə də bununla gəlir gəlirsə, qarşı tərəf buna niyə imkan verməməlidir? Məncə bunlar ikisi də paralel olmalı, ikisi də bir-birinin davamı olmalıdır. Bir-birinə hörmət edən ailədə tərəflərdən biri digərini karyera qurmamağa məcbur edə bilməz. Bunların hər ikisi vacibdir, ikisi də mütləqdir və nəzərə alınmalıdır. Çalışmaq lazımdır ki, bunlar paralel olaraq bir yerdə həyata keçə bilsinlər. Çünki, ikisi də müqəddəs bir işdir", deyə Ceyhun Musaoğlu bildirib.

Araşdırmanın nəticəsi olaraq belə bir qənaətə gəlirik ki, həqiqətən də insanlar karyera, və yaxud ailə həyatı qurmaq kimi seçim etmək məcburiyyətində qalmamalıdırlar. Çünki, hər ikisini eyni zamanda həyata keçirmək mümkündür və biri digərinə mane ola bilməz. Əlbəttə ki, karyera da, ailə həyatı da insan həyatında vacib məsələlərdəndir. Bu baxımdan ailə qurmağı karyeraya, karyeranı da ailə qurmağa qurban verməyə ehtiyac yoxdur. Yaşamaq da, yaratmaq da hər kəsin haqqıdır.

***İnam Hacıyev***

## Meşələrin elektron kadastr uçotunun qurulması və xəritələrinin elektronlaşdırılması aparılır

Meşələrin elektron kadastr uçotunun qurulması və xəritələrinin elektronlaşdırılması prosesləri aparılır. Proses İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti ilə birlikdə həyata keçirilir. AZƏRTAC xəbər verir ki, bunu Meşələrin İnkişafı Xidmətinin rəis müavini Mehman Səfərov "Ekspert saatı"nda deyib.



O bildirib ki, xəritələrin elektronlaşdırılmasının növbəti ildə yekunlaşdırılması gözlənilir: "Proses başa çatdıqdan sonra həmin məlumatın hər kəs üçün əlçatan olması, ictimaiyyətə yayımlanması, meşələrin ərazisinin elektron xəritəsinin görünməsi prosesi həyata keçiriləcək. Bu proseslərin şəffaf şəkildə olması və hər kəsin həmin məlumatlara əlçatanlığı təmin olunacaq".

# Ermənilərin törətdiyi ekoloji terror böyük fəsadlar yaradır

**44 günlük Vətən müharibəsində Azərbaycan işğal altında olan ərazilərini düşmən tapdağından azad edərək, Zəfər qazandı. Bu gün Azərbaycan bütün dünyaya ermənilərin ərazilərimizdə törətdikləri vandallığı nümayiş etdirir.**







Ötən əsrin son illiyində baş verən ictimai-siyasi proseslər nəticəsində xalqın milli varlığını, onun tarixini əks etdirən abidələr Ermənistan təcavüzkarları tərəfindən dağıdılıb, məhv edilib. Maddi abidələrə qarşı talançılıq siyasətininin yeridilməsi beynəlxalq hüquq normalarının kobudcasına pozulması deməkdir. İşğaldan azad olunan ərazilərimizdə hərbi təcavüz nəticəsində ilk insan məskənlərindən olmuş məşhur Azıx, Tağlar mağaraları və s. Ermənistan tərəfindən qəsdən dağıdılıb. Ağdam, Ağdərə, Füzuli, Cəbrayıl rayonlarındakı kurqanlarla yanaşı, Şuşa, Laçın, Kəlbəcər, Qubadlı, Zəngilan, Füzuli rayonlarının ərazilərindəki qəbiristanlıqlar, türbələr, məzarüstü abidələr, məscidlər, məbədlər, Qafqaz Albaniyasına məxsus abidələr və digər milli abidələrimiz məhv edilib. Bu sırada Azərbaycanın tanınmış ədiblərinin, eləcə də musiqiçilərinin ev-muzeyləri, abidə və büstləri də var. Bütün bunlarla yanaşı, Azərbaycan təbiəti də erməni terroru ilə üz-üzə qalıb. Təbiətə qarşı olan ermənilərin amansızsızlıq aksiyası onların Azərbaycan ərazilərinə qarşı qısqanclığını bir daha ortaya qoymuş oldu. Əlbəttə ki, belə mövqe ermənilərin Qarabağ ərazisində müvəqqəti olduğunu təsdiqləyirdi.

Dünya mətbuatı həmişə olduğu kimi, bu gün də erməni terroruna biganə qala bilməmiş və Azərbaycan həqiqətlərini diqqətə çəkərək, məzmunlu məqalələr dərc edirlər. Bu günlərdə Almaniyanın nüfuzlu "TRT Deutsch" xəbər portalında "Azərbaycan Ermənistan şirkətləri tərəfindən ətraf mühitin çirkləndirilməsini tənqid edir" sərlövhəli məqalə dərc edilib. Məqalədə Ermənistan şirkətləri tərəfindən istehsal tullantıları ilə bağlı həyəcan təbili çalınır. Bu tullantıların Azərbaycanın su ehtiyatlarının, xüsusən də Oxçuçayın çirkləndirilməsi ilə nəticələndiyi qeyd olunur. Bu ərazidəki indiki vəziyyət ekoloji fəlakət kimi dəyərləndirilir. Qeyd edək ki, Oxçuçay Arazın sol qoludur. Ermənistan Qafan rayonu və Azərbaycanın Zəngilan rayonu ərazisindən keçir. Uzunluğu 85 km, hövzəsinin sahəsi 1140 km.-dir. Başlanğıcını Zəngəzur silsiləsinin Qapıcıq dağından götürür.

Qafan və Qacaran dağ - mədən sənayesinin tullantıları ilə hədsiz dərəcədə çirkləndirilən Oxçuçay əslində sənaye tullantılarını Ermənistanın bu bölgəsindən uzaqlaşdıran kollektor rolunu oynayır. Çayın suyu o dərəcədə zəhərlənib ki, burada heç bir canlı yaşamır. Onun suyundan suvarmada istifadə edildiyi Zəngilan rayonu ərazisində torpaqlar da zəhərlənib. Məqalədə qeyd olunur ki, alman şirkətləri bu çirkləndirilməyə görə daha böyük məsuliyyət daşıyır. Karlsruedə (Almaniya) yerləşən "Cronimet" şirkətlər qrupu Ermənistanda ən iri vergiödəyicisi olan Zəngəzur mis-molibden kombinatının əsas səhmdarıdır. O, kombinatın səhmlərinin 60 faizinin sahibidir. Britaniya şirkəti tərəfindən alınandan sonra "Chaarat Kapan CJSC" qapalı səhmdar cəmiyyəti adlandırılan Qafan dağ-zənginləşdirmə kombinatı da tənqid olunan obyektlər sırasındadır.

Məqalədə Azərbaycan ekspertlərinə istinadla bildirilir ki, Oxçuçaydan götürülmüş su nümunələrində nikel yeddi, dəmir dörd və mis-molibden birləşməsi iki dəfə normadan çoxdur. Forel və digər balıqlar çayda kritik həddə çirklənmə nəticəsində artıq məhv olublar, ağır metalların səviyyəsinin yüksək olması insan sağlamlığı üçün də təhlükəlidir.

Ermənilərin ekoloji terroru Azərbaycanın flora və faunasına zərər yetirmiş, təbii sərvətlərini məhv etmişdir. Bu, ermənilərin bilərəkdən Azərbaycana vurduğu ziyandır və illərdir ki, ölkəmiz ermənilərin törətdiyi ekoloji terrordan əziyyət çəkir.

*Zümrüd BAYRAMOVA*

## "Azərbaycan bütün lazımi addımları atmağa hazırdır"

"92 min minanın xəritəsinin verilməsi Füzuli və Zəngilan rayonlarında minanın təmizlənmə işlərini sürətlə həyata keçirməyə imkan verir. Bu minalar nə qədər tez təmizlənərsə, həmin ərazilərdə o qədər tez quruculuq işləri başlaya bilər, xarici investisiya cəlb oluna bilər". Bu sözləri SİA-ya açıqlamasında politoloq Nadir Şəfiyev deyib.




Onun sözlərinə görə, bu rayonların inkişafına nail olmaq, tikinti işlərini həyata keçirmək imkanı əldə etmək olar: "Məhz bu ərazilərdə 92 min mina basdırılıb. Aydındır ki, illər boyu aparılan danışıqlara rəğmən ermənilər bu əraziləri bizə qaytarmaq istəmirdilər. Əgər qaytarmaq istəsəydilər, onlar orada istehkamlar qurmazdılar, mina basdırmazdılar. Bütün bu işlər yeni minaların basdırılması, istehkamların qurulması ona yönəlib ki, Azərbaycan bu ərazilərə qayıda bilməsin, Azərbaycan Ordusu bu ərazilərdə əməliyyat apara bilməsin. Azərbaycan Ordusu, Ermənistan ordusunu həmin ərazilərdən çıxara bilməsin".

Politoloq həmçinin qeyd edib ki, bütün dünyaya göstərdik ki, biz eyni zamanda kifayət qədər tolerant dövlətik: "Biz ermənilərlə ədavət aparmırıq. Biz sadəcə olaraq öz ərazi bütövlüyümüzü bərpa etmək istəyirdik. Gördüyümüz kimi, ermənilər mina xəritələrini verdikdən sonra biz onların terrorçularını qaytardıq. Bir məsələni yaddan çıxartmaq olmaz ki, uzun müddətli araşdırmalar aparılıb. Terrorçuların arasında öz xoşu ilə gələnlər də var idi. Onların arasında aldalıb gətirilənləri də var idi. Azərbaycan tərəfinin hal-hazırda Ermənistana qaytardığı diversantlar aldadılıb gətirilənlərdir ki, onlar bir döyüşçü olaraq, əmri yerinə yetirirərək oraya gətirilib. Azərbaycan ərazisinə təxribat törətməyə, terror hadisələri törətməyə, azərbaycanlılara qarşı hədə-qorxu gəlib silah işlətməyə hazır olanları Azərbaycan Ermənistana qaytarmır. Bütövlükdə bu prosesin bərpa olması və bu cür həyata keçirməsi onu göstərir ki, Azərbaycanla Ermənistan arasında dialoqu qurmaq, sülh prosesini sürətləndirmək mümkündür və bu istiqamətdə Azərbaycan bütün lazımi addımları atmağa hazırdır".

*Arzu Qurbanzadə*

## DİQQƏT: Əlillik bu kateqoriyalara əsasən təyin olunacaq!

"Tətbiq olunacaq yeni meyarlarla əlillik artıq 3 dərəcə üzrə məhdud çərçivədə deyil, orqanizmin funksiyalarının itirilməsi faizinin müəyyən edilməsi prinsipi əsasında, həm də xəstəliyin ağırlıq dərəcəsi nəzərə alınmaqla təyin olunacaq". Bu sözləri SİA-ya açıqlamasında Dövlət Tibbi Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin İƏŞ müdiri Tural Qurbanov deyib. Onun sözlərinə görə, yeni, I dərəcə - orqanizmin funksiyalarının 81-100 faiz itirilməsi, II dərəcə - orqanizmin funksiyalarının 61-80 faiz itirilməsi, III dərəcə - orqanizmin funksiyalarının 31-60 faiz itirilməsi kimi müəyyən ediləcək: "Həmçinin sağlamlıq imkanlarında məhdudluq da bu əsasda təyin olunacaq".



Tural Qurbanov sözlərinə belə davam edib: "Əlilliyin qiymətləndirilməsi ÜST standartları və bir çox ölkələrin müsbət təcrübəsi nəzərə alınmaqla şəxsin özünəqulluq, sərbəst hərəkətetmə, istiqamət seçmə, ünsiyyət, davranışına nəzarət etmə, öyrənmə və əmək fəaliyyəti üzrə insanın həyat fəaliyyətinin 7 əsas kateqoriyasının məhdudlaşma dərəcəsi əsas götürülməklə aparılacaq. Əsas məqsəd əlillik təyinatlarında həssas və obyektiv yanaşmanın, ünvanlılıq və sosial ədalətin təmin edilməsidir. Bu meyarlar eyni zamanda, əlillik təyinatı sahəsində qabaqcıl beynəlxalq standartların tətbiqinə, xidmətin keyfiyyətinin və vətəndaş məmnunluğunun yüksəldilməsinə, əlilliyi olan şəxslərin cəmiyyətə inteqrasiya imkanlarının artırılmasına xidmət edir".

*Ayşən Vəli*

## "Ermənistanın durumu daha da ağırlaşacaq"

**"Ermənistanda son duruma parlamentin nəticələrindən çıxış edərək qiymət vermək lazımdır. Seçkilərin nəticələrinə diqqət yetirdikdə Paşinyan və onun tərəfdarları qalib gəliblər. Amma müxalifətdə olan Sarkisyan və Koçaryan blokunun bu məğlubiyyəti həzm edə bilməməsi Ermənistandakı son durumu müəyyən mənada səciyyələndirən əsas amillərdən biri kimi qəbul oluna bilər". Bunu SİA-ya açıqlamasında politoloq Elşən Manafov deyib.**



Onun sözlərinə görə, Köçaryanın seçkilərin nəticələrini qəbul etməyib konstitusiya məhkəməsinə müraciət edəcəyi də prinsip etibarı ilə sonluqda heç nəyi dəyişməyəcək: "Ermənistanda seçicilərin mütləq əksəriyyəti Paşinyana və onun siyasi kursuna dəstək veriblər. Bu isə o deməkdir ki, Azərbaycana qarşı sonuncu savaşda ağır məğlubiyyətə uğrayan Ermənistan xalqı və ictimaiyyəti Azərbaycanla əlbəttə artıq növbəti qarşıdurmadan çəkinir və anlayırlar ki, bölgənin və Ermənistanın da ümumiyyətlə perspektiv müqəddəratı və inkişafı bölgədə əməkdaşlıqdan və Azərbaycanla münasibətləri fərqli müstəvi üzərinə keçirməməkdən gedir. Düşünürəm ki, Paşinyan keçən il Rusiyanın moderatorluğu ilə əldə edilmiş danışıqların həyata keçiriləcəyi istiqamətində daha real və operativ addımlar atarsa, bu bütövlükdə erməni dövlətinin və erməni xalqının da sosial maraqlarına, Ermənistanın təhlükəsizlik maraqlarına cavab verəcək bir siyasi hadisə kimi də qiymətləndirilə bilər. Çünki nəticə etibarı ilə bölgədə nəqliyyat-kommunikasiya xətlərinin açılması təkcə Ermənistana deyil, bölgədə sabitlik və təhlükəsizliyin təmin olunmasında, bölgəyə investisiya axınının genişlənməsində, bölgədə və bölgə dövlətləri arasında əməkdaşlığın gücləndirilməsində maraqlı olan bütün dövlətlərin maraqlarına cavab verir".

*Gülyana*

# Qətiyyətli siyasətin məntiqi nəticəsi

**Ötən il Azərbaycanın şanlı tarixinə 44 günlük Vətən müharibəsi kimi düşən İkinci Qarabağ savaşı uğurla yekunlaşandan sonra xalqımız və dövlətimizin qarşısında yeni məsul vəzifə dayandı. Bu, işğaldan azad edilmiş tarixi və əzəli torpaqlarımızda quruculuq, bərpa işlərinin aparılması, yenidən Qarabağa həyatın qaytarılmasıdır. Artıq dövlətimiz bu istiqamətdə genişmiqyaslı işlər görür, əcnəbi şirkətlərlə birgə yeni iqtisadi, quruculuq layihələri hazırlanır, hətta infrastrukturun bərpası ilə bağlı bir çox ilkin tədbirlər həyata keçirilir. Təbii ki, bütün bu mənzərələrin fonunda ölkə başçısının işğaldan azad olunmuş ərazilərə mütəmadi səfərlər etməsi quruculuq və bərpa işlərinin daha operativ və effektiv şəkildə davam etdirilməsini təmin edir.**

Ancaq bu gün mənfur düşmən terror siyasətini təkcə işğal dövründə deyil, məğlubiyyətdən sonra da davam etdirir. Ermənistan hər yeri, hətta hərbi təyinatı olmayan əraziləri də minalayıb. Əsas məqsədi, əlbəttə ki, mümkün qədər çoxlu sayda mülki şəxslərin həlak olmasını təmin etmək, hər vəchlə işğaldan azad olunmuş ərazilərin bərpası istiqamətində həyata keçirilən işlərə mane olmaqdır.

Azərbaycan Prezident İlham Əliyev bütün görüş və müsahibələrində söügedən məsələyə aydınlıq gətirərkən bildirmişdir ki, Ermənistan cinayətkar əməllərini müharibədən sonra da davam etdirir: "Biz işğaldan azad olunmuş ərazilərin təhlükəsizliyini bu gün kifayət qədər təmin edirik, müntəzəm reydlər keçiririk, pilotsuz uçuş aparatları vasitəsilə və vizual şəkildə monitorinq aparırıq. Buna görə vəziyyət tam nəzarət altındadır. Bundan əlavə, əlbəttə, ərazilərin minalanması əsas çətinlikdir. Ona görə ki, erməni tərəfi minalanmış sahələrin xəritələrini bizə



təqdim etməyib. Yeri gəlmişkən, bu da cinayət hesab edilə bilər. Ona görə ki, hərbi əməliyyatlar başa çatandan sonra bizdə həm hərbi qulluqçular, həm də mülki şəxslər arasında bir neçə hadisə olub, bu insanlar yalnız ona görə həlak olub ki, minalanmış sahələrin xəritələri bizə təqdim edilməyib. Minalanmış sahələrin xəritələrini verməmək cinayətdir".

Ancaq bu gün Cənab Prezident İlham Əliyevin rəhbərliyi və qətiyyəti ilə işğaldan azad olunmuş ərazilərimizi Füzuli və Zəngilan ərazisində mina xəritələrinin Azərbaycana verilməsi Prezident İlham Əliyevin uzaqgörən siyasəti, diplomatik məharəti və Azərbaycan diplomatiyasının növbəti uğurudur.

Doğrudur, ermənilər müxtəlif bəhanələr gətirərək, həmin xəritələri bir müddətdir Azərbaycana verməkdən imtina edir, daha çox azərbaycanlının minalar nəticəsində həyatını itirmələrinə nail olmağa çalışırdılar. Ancaq Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu daxili və xarici siyasət, diplomatik səylər nəticəsində onların bu istəkləri iflasa uğradı. Bu gün Azərbaycanın döyüş meydanında qazandığı qələbəsi davamlı xarakter alıb və növbəti qələbəmizin göstəricisidir ki, 3 iyulda işğaldan azad olunmuş daha iki rayonun - ermənilərin uzun illər minaladığı Füzuli və Zəngilanda 92 min mina xəritələrinin əldə olunması həmin uğurun davamı olmaqla, bu, 10 minlərlə vətəndaşımızı minaya düşərək həlak olmasının qarşısının alınması deməkdir. Zaman onu göstərdi ki, Prezident İlham Əliyev nəyi, necə və nə vaxt etmək lazımdırsa, yaxşı bilir. Bu gün ermənilərin basdırdıqları minalar onların məqsədlərinə xidmət etmədi və öz əhəmiyyətini itirdi və tezliklə minalanmış bütün ərazilərin xəritələri bizə veriləcək. Həmçinin, sözügedən xəritələrin bizə verilməsi regionda davamlı sülhün əldə olunmasına, həmin ərazilərdə yenidənqurma və bərpa işlərinin nizamlı şəkildə sürətlənməsinə imkan yaradır. Hazırda Ağdamdan sonra ən böyük infrastruktur layihələri Füzuli rayonunda həyata keçirilir. Burada yeni hava limanı, dəmir yol xətləri və avtomobil yolları inşa olunur. Bu baxımdan, Füzuli xüsusi strateji əhəmiyyət kəsb edir.

Bu mənada deyə bilərik ki, hər addımında ölüm saçan istər Ağdamın, istər Füzuli və Zəngilanın, istərsə də bundan sonra işğaldan azad olunmuş ərazilərimizin mina xəritələrinin əldə olunması məhz Azərbaycan Prezidenti İlham Əliyev cənablarının qətiyyətli, diplomatik siyasətinin qələbəsidir.

Beləliklə, Prezident İlham Əliyevin strateji və taktiki siyasi xətti davam edir. Çünki qarşıda hələ çox işlər durur. Ermənistan da zənn etməməlidir ki, Ağdam, Füzuli, Zəngilanla hər şey bitdi, işğaldan azad olunan digər rayonlara basdırılan minaların da xəritəsi tək-tək Azərbaycana təhvil verilməlidir. Bunu məcbur qalmadan etsə, hər şey bu ölkənin özü üçün də faydalı olacaq. Çünki bu gün Azərbaycan şərtləri diktə edən ölkədir.

***HƏMİD PƏNAHOV,***
***YAP Qazax rayon təşkilatının sədri***

# "Biz öz yetişdirdiyimiz şagirdə dəstək ola bilmirik"

"Dünya təhsili ilə bağlı təcrübə baxımından biz əsasən Avropa və şəhər təhsil sistemini götürə bilərik. Şəhər təhsil sistemində Yaponiya və Cənubi Koreya bizim üçün daha əlverişli imkan yarada bilər. Amma təəssüflər olsun ki, bnunla bağlı tətbiq etdiyimiz mövcud təhsil sistemi bir o qədər təhsil alanların daha yaxşı dərsləri mənimsəməsinə imkan vermir". Bu sözləri SİA-ya açıqlamasında təhsil məsələləri üzrə mütəxəssis Elçin Əfəndi deyib.



Onun sözlərinə görə, Avropa təhsil sistemində daha çox şagirdin maksimum biliklər əldə etməsinə üstünlük verilir: "Yəni, orada hansı ki, ona lazım olmayan biliklərin verilməsi əhəmiyyət kəsb etmir. Amma bizdə təəssüflər olsun ki, şagirdin gələcəkdə istifadə etməyəcəyi bilikləri də yaşdan orta ümumtəhsil müəssisəsini bitirən vaxta qədər həmin biliklər şagirdlərə verilir. Həmin o bilik və təcrübələr istisna halları nəzərə almasaq heç bir halda tətbiq olunmur".

"Biz artıq iki ildir disdant formalı təhsil tətbiq etmişik. Amma bu növ təhsildə müəyyən qaydaları gözləmirik. Amma Avropada disdant formalı təhsil tamam fərqlidir. Yəni, orada ən azından ali və yaxud orta ixtisas təhsil müəssisəsini nəzərə alsaq qayıba görə tələbələr sıxışdırılmır. Amma bizdə təəssüflər olsun ki, bunun əksini müşahidə edirik".

"Bundan əlavə proqramların, eyni zamanda standart təhsil sisteminin inkişaf etməməsidir. Məsələn, Avropa təhsil sistemində əksəriyyət gənc professorlardır. Amma bizdə istənilən ali və orta təhsil müəssisəsində əsasən yaşlı nəslin nümayəndələri ilə rastlaşırıq. Hansı ki, onlar informasiya texnologiyalarına o qədər bağlı deyillər. Yəni, gənc nəsil bu barədə çevik və adekvatdır. Fərqlər həddindən artıq çoxdur. Məsələn, Finlandiya təhsil sistemində dərs saatı çox azdır. Şagirdlərə maksimum imkan yaradılır ki, valideynlər də bu işin içində tam olsun. Yəni, valideyn nəzarəti əksik olmasın. Amma bizdə əksinə, valideynlər demək olar ki, təhsil sistemindən daha kənarda dayanırlar və eyni zamanda təhsil müəssisələri bu məsələdə o qədər maraqlı deyillər ki, valideynlər iştirak etsin. Biz Avropa, Finlandiya təhsilini tətbiq edə bilmərik. Düşünürəm ki, bizim ölkədə Finlandiya təhsil sistemi tətbiq olunsa biz daha yaxşı nəticələr əldə edə bilərik. Bizim bəzi məsələlərdə olan milli təfəkkür tərzi dərslərimizi normal qaydada tədris etməyə imkan vermir".

Elçin Əfəndi sözlərinə belə davam edib: "Bundan əlavə ixtisasların özünün də böyük əhəmiyyəti var. Məsələn Avropa və Amerika təhsil sistemində yeni müasir standartlara cavab verən ixtisasları görürük. Amma, halbuki bizdə elə ixtisaslar var ki, onlar artıq "ölü ixtisaslar" qrupuna daxildir. Təəssüflər olsun ki, biz onları hələ də saxlayırıq. Yəni, bu ixtisasların ya adını dəyişdirmək lazımdır, ya üzərində təkmilləşdirmə aparmaq lazımdır. Bu halda biz nələrəsə nail ola bilərik. Əks halda, təəssüflər olsun ki, təhsilimiz olduğu formada davam edəcək".

"Başlıca problemimiz ondan ibarətdir ki, biz öz yetişdirdiyimiz şagirdə dəstək ola, yəni, onları daimi inkişaf etdirə bilmirik. Belə olduğu halda hər il xarici ölkə universitetlərinə minlərlə axın olur. Amma halbuki, biz onları burada saxlayıb keyfiyyətli təhsil versək, və yaxud da dövlət proqramı ilə təhsil dalınca göndərib geri qaytarsaq əlbəttə nəticə əldə edərik. Çünki bizdə kifayət qədər potensiallı şəxslər var. Amma təəssüf ki, biz onları kənarlaşdırırıq. Beləliklə, gələcəkdə onlar dövlətimizə deyil başqa ölkələrin maraqlarına xidmət edəcəklər. Bu isə bizim üçün heç də xoş gələcək bəxş etmir".

***Ayşən Vəli***

# "Mina xəritələrinin əldə olunması azad edilmiş torpaqlarda insan itkisini minimuma endirəcək"



**Həm müharibəyə qədər olan zaman kəsiyində, həm müharibə dövründə, həm də müharibədən sonra Prezident İlham Əliyev milli maraqlarımızı rəhbər tutaraq, qətiyyətli siyasət yürütməklə qarşıya qoyulan məqsədə doğru inamla addımlayır. İndiki mərhələdə əsas məsələ işğaldan azad olunmuş ərazilərin bərpa edilərək, məcburi köçkünlərin doğma evlərinə geri dönməsi, nəqliyyat, kommunikasiya xətlərinin bərpası, bütövlükdə regionun inkişafıdırsa, bu məqsədlərə gedən yolda ərazilərin minalanması qarşımızda maneələr yaradırdı.**

Bu səbəbdən də Prezident İlham Əliyevin rəhbərliyi ilə fəal diplomatik siyasət yürüdülürdü ki, bu əməli fəaliyyətin müsbət nəticəsinin yenə də şahidi olduq. Ağdamdan sonra Füzuli və Zəngilan rayonlarının ərazilərində yerləşdirilən mina xəritələrini əldə etdik ki, bu da eyni anda bir neçə məsələyə xidmət edən uğurdur. Belə ki, bu, ilk növbədə, təhlükəsizlik məsələsi ilə bağlıdırsa, digər tərəfdən infrastruktur işlərinin qısa zaman kəsiyində reallaşdırılmasına, daha sonrakı mərhələdə isə insanlarımızın öz yurd-yuvalarına tezliklə geri dönmələrinə xidmət edir.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında politoloq Şəbnəm Həsənova bildirib.

Politoloq deyib: "Birincisi, olduqca böyük rəqəm olan 92 min mina insan itkisini minimuma endirir. Bu, həm sadə vətəndaşlara, həm hərbçilərimizə, həm də xidməti vəzifələrini icra edən minatəmizləyənlərə aiddir. Bundan əlavə, nəzərə alsaq ki, Ağdamdan sonra Füzuli və Zəngilan ən çox minalanmış ərazilərdir, eyni zamanda, Ağdamdan sonra ən böyük yol-nəqliyyat infrastrukturu Füzulidən keçir, məhz bu sonuncu strateji əhəmiyyət kəsb edən ərazimizdir, yəni, işğaldan azad olunmuş ərazilərimizə bu rayondan keçməklə gedəcəyik, o zaman bu, həm vaxt, həm də vəsait itkisinin qarşısının alınması deməkdir. Çünki xəritə əldə olduqdan sonra təmizlik işləri konkret ərazilərdə aparılacaq. Nəzərə alınmalı bir digər məsələ isə odur ki, Zəngilanda "ağıllı kənd" layihəsi icra olunur. Mina xəritələrinin alınması bu işi də sürətləndirəcək. Prezident İlham Əliyevin əsasını qoyduğu bərpa-quruculuq işlərinin yekunlaşması ilə ürəkləri torpaq, yurd həsrəti ilə döyünən insanlarımızın doğma ocaqlarına qayıdışı da sürətlənəcək".

Ş.Həsənova qeyd edib ki, mina xəritələrinin təhvil verilməsi ilə bölgə qısa zamanda təmizlənəcək, təhlükəsizlik təmin olunacaq, bu da xarici investorların işğaldan qurtulmuş ərazilərə sərmayə qoymasını sürətləndirəcək. Nəticə etibarilə bütövlükdə regionun inkişafı üçün pəncərə açılacaq. Azərbaycan tərəfi isə növbəti dəfə humanist addım ataraq 15 erməni əsilli şəxsi Ermənistan tərəfinə təhvil verdi. Bu cür mübadilə qarşılıqlı inam və etimadın yaradılmasına da xidmət edir. Ermənistan dövləti bir qayda olaraq belə humanitar jestlərdən nəticə çıxarmalıdır. Mina xəritələrinin verilməsi yol, nəqliyyat kommunikasiyaların açılması işini də sürətləndirir ki, məhz bu amilin özü Ermənistanın regiona inteqrasiyasını təmin edəcək. Prezident İlham Əliyevin rəhbərliyi ilə başlanılan işlərin uğurla yekunlaşdırılmasının tarixi hər ötən gün daha da yaxınlaşır.

# AMİP funksioneri: "Çıxarmaq istəyirlərsə, buyursunlar çıxarsınlar, amma..."



"Hər bir vətəndaşın sərbəst toplaşmaq hüququ var. Yəni Azərbaycan Respublikasının Konstitusiyasına görə, insanlar mitinqlər, küçə yürüşləri keçirə bilərlər. Bu son bahalaşma bir qədər insanlarda narazılıq yaratdı. Amma inanmıram ki, müxalif qüvvələr tərəfindən keçirilməsi nəzərdə tutulan aksiyalara insanlar qatılsınlar, küçələrə çıxsınlar və etiraz etsinlər". Bunu SİA-ya açıqlamasında AMİP funksioneri Əli Orucov deyib. Onun sözlərinə görə, insanlar hansısa partiyanın çağırışına qoşulub, küçələrə çıxmayacaqlar: "Demək olar ki, adları çəkilən şəxslərin məqsədləri nədir, özləri bilərlər, amma reallıq budur ki, kütləvi aksiyaların baş tutacağı inandırıcı deyil. Yəni adı gedən şəxslərin çağırışı ilə ən azı 10 minlərlə insanların küçələrə çıxacağı inandırıcı deyil. Əgər çıxarmaq istəyirlərsə buyursunlar çıxarsınlar görək necə çıxaracaqlar".

***Gülyana***

# Hücum diplomatiyasında "Dəmir Yumruq"!

**"İşğaldan azad olunan ərazilərdə ermənilər tərəfindən basdırılan minaların xəritələrinin təhvil verilməsi ilə əlaqədar Azərbaycanın çağırışlarına, bəyanatlarına rəğmən Ermənistan israrla belə bir xəritələrin varlığını inkar edirdi.**



Hətta 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanatın tələblərinə də hörmətsizlik edərək qeyri-konstruktiv mövqe sərgiləyirdi. Lakin işğalçı ölkədə seçkiöncəsi yaşanan xaotik vəziyyətdən çıxış yolu tapmayan Ermənistan nəhayət yenidən Azərbaycanla hesablaşmağa məcbur oldu. Artıq Azərbaycanın diqtəsi ilə hərəkət etməkdən başqa bir çarəsi yoxdur. Prezident İlham Əliyevin dediyi kimi, bunu öz xoşları ilə etməsələr, məcburən edirəcəyik. Və bu gün Ermənistan Azərbaycannı şərtlərinə əməl etməyə məcbur oldu - iyunun 12-də Acdamın, iyulun 3-də Füzuli və Zəngilanın mina xəritələrini təhvil verdi. Bu Prezident İlham Əliyevin hücum diplomatiyasında "Dəmir Yumruq" siyasətinin növbəti diplomatik uğurudur". Bu fikirləri SİA-ya açıqlamasında YAP Masallı rayon təşkilatının sədri Seyfəddin Əliyev bildirib.

Seyfəddin Əliyev vurğulayıb ki, mina xəritələrinin verilməsi insan itkisinin qarşısının alınmasında rol oynayır: "Ermənistan 30 ilə yaxın işğal altında saxladığı ərazilərimizin böyük hissəsini minalayıb ki, bu da həmin ərazilərin bərpasına böyük əngəldir. Eyni zamanda, müharibə bitdikdən sonra mina xəritələrinin Azərbaycana verilməməsi hərbi cinayət hesab olunur. Məlumdur ki, müharibə başa çatandan sonra xeyli sayda günahsız insan minaların qurbanı olub. Azərbaycan dövləti Ermənistanın mina xəritələrinin verilməsi üçün mümkün təsir imkanlarından istifadə edib və bu haqda beynəlxalq təşkilatlara və dünya dövlətlərinə müraciət edib. Bu istiqamətdə görülən işlər öz səmərəsini verməkdədir".

S.Əliyev vurğulayıb ki, indiyə qədər erməni tərəfi onlarda mina xəritələrinin olmamasını iddia edirdi və müxtəlif bəhanələrlə xəritələri Azərbaycana vermək istəmirdi: "Ermənistanın məqsədi mina qurbanı olan insanların sayının daha çox olması və azərbaycanlıların öz doğma yurdlarını qayıtmasını maksimum dərəcədə əngəlləmək idi. Amma Azərbaycan Prezidentinin diplomatik məharəti erməni tərəfinin bu çirkin, insanlıqdan uzaq olan niyyətini puç etdi. Mina xəritələrinin Azərbaycana verilməsi, ilk növbədə, onu göstərdi ki, Prezident İlham Əliyevin Ermənistanı buna məcbur etmək üçün yürütdüyü prinsipial və məqsədyönlü siyasət öz uğurlu nəticəsini verməkdədir. Bu baxımdan Ermənistanın mina xəritələrini Azərbaycan tərəfinə təqdim etməsi, ilk növbədə, Prezident İlham Əliyevin qətiyyətli iradəsinin nəticəsi, ölkəmizin diplomatik uğurudur. Eyni zamanda minalanmış ərazilərin xəritəsinin alınması 30 il işğal altında saxlanılan Qarabağın azad olunması ilə nəticələnmiş Zəfərdən sonra Azərbaycan Prezidentinin növbəti qələbəsi olmaqla, həm də Ermənistanın mina xəritələrinin olmaması ilə bağlı iddialarına birdəfəlik son qoyuldu. Enyi zamanda, mina xəritələrinin əldə edilməsi on minlərlə vətəndaşımızın, o cümlədən minatəmizləyənlərin həyatını və sağlamlığını təhlükədən xilas etməsdir. Bu hadisə Prezident İlham Əliyev tərəfindən Ağdamda əsası qoyulan yenidənqurma layihələrini və məcburi köçkünlərin qayıdışı prosesini daha da sürətləndirəcək".

YAP Masallı rayon təşkilatının sədrinin sözlərinə görə mina xəritələrinin verilməsi işğaldan azad olunmuş ərazilərdə bərpa və quruculuq işlərinin sürətlə aparılmasına şəraitin yaradacaq: "İşğaldan azad olunmuş Qarabağda bərpa-quruculuq işləri həyata keçirilir. Bu işlərin daha sürətlə aparılmasına ən böyük mənеə ərazilərin minalanmasıdır. Məlumdur ki, Ağdamdan sonra ən böyük infrastruk layihələri Füzuli rayonunda həyata keçirilir. Belə ki, bu rayondan Şuşaya Zəfər yolu, digər önəmli avtomobil yolları, eləcə də Zəngəzur dəhlizinin tərkib hissəsi olan dəmir yolu xətti, beynəlxalq hava limanı və s. infrastruktur layihələri icra olunur. Bütün bunlar Füzuli rayonunun strateji əhəmiyyətinin göstəricisidir. Eyni zamanda, Zəngilan rayonunda da cənab Prezident İlham Əliyev və Birinci vitse-prezidentimiz Mehriban xanım Əliyevanın iştirakı ilə böyük qayıdışın müjdələrindən olan "ağıllı kənd" layihəsinin təməli atılıb. Beləliklə, inanırıq ki, Azərbaycanın uğurlu diplomatiyası, cənab Prezidentin qətiyyətli mövqeyi nəticəsində digər bölgələrdə də basdırılmış minaların xəritəsi ölkəmizə veriləcək. Digər tərəfdən, mina xəritələrinin əldə edilməsi on minlərlə vətəndaşımızın, o cümlədən minatəmizləyənlərin həyatını təhlükədən xilas edəcək və işğaldan azad edilmiş ərazilərimizdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən əsası qoyulan tikinti və yenidənqurma layihələrini və məcburi köçkünlərin qayıdışı prosesini sürətləndirəcək".

***RƏFİQƏ HÜSEYNOVA***

# Bəzi müəllimlər niyə intihar edir və kimlər burada maraqlıdır?



**"Son 3 ay ərzində orta təhsil müəssisələrində çalışan bir neçə müəllim intihar edib. Bu kifayət qədər ciddi bir faktdır. Nəzərə alsaq ki, intihar edənlər indiki təcrübəyə görə daha çox ali təhsil müəssisələrində qəbul imtahanlarında uğurlu nəticə əldə etməyən, eyni zamanda şəxsi həyatında müəyyən qədər uğursuz olan şagird və tələbələr idisə, çox təəssüf ki, son bir neçə ayda orta təhsil müəssisələrində çalışan gənclərimizə təhsil, tərbiyə verən onların psixi və psixoloji inkişafında birbaşa iştirak edən şəxslər intihar etməyə başlayıb". Bu sözləri SİA-ya açıqlamasında təhsil eksperti Kamran Əsədov deyib.**

Onun sözlərinə görə, bu təbii ki, çox təəssüf doğurmaqla yanaşı, özündə böyük bir narahatlığı da əks etdirir: "Çünki yetkin yaşda olan şəxslərin, xüsusən də təhsil prosesində çalışan şəxslərin intihara əl atması kifayət qədər ciddi siqnaldan verir. Biz həmin şəxslərin tədris fəaliyyətini araşdırarkən görürük ki, həmin müəllimlər kifayət qədər yüksək nəticələrə malikdirlər. Onların şagirdləri buraxılış imtahanlarında çox yaxşı nəticə göstəriblər. Hesab edirəm ki, bu ciddi bir faktordur. Biz intihar yolunu seçən müəllimlərin həmkarlarına, onlarla qonşu olan şəxslərdən soruşduqda bəzilərin sosial problemlərinin olduğunun, bəzilərinin bu və ya digər xəstəlikdən əziyyət çəkdiyini qeyd edirlər. İnsanlar bəzən hər hansı bir problemli situasiyadan, böhranlı vəziyyətdən çıxmaqdan çətinlik çəkirlər".

Kamran Əsədov həmçinin qeyd edib ki, müəllimlərin əmək haqları onların sosial vəziyyətini yaxşılaşdırmağa imkan vermir: "Bu faktlar onu deməyə əsas verir ki, biz birmənalı şəkildə orta təhsil müəssisələrində çalışan müəllimlərin maddi-sosial vəziyyətini yaxşılaşdırmaq, eyni zamanda mütəmadi olaraq tibbi müayinələrdən keçməklə yanaşı, mütəmadi olaraq psixoloji təlimlərə, psixoloji konsultasiyalara cəlb edilməsini təşkil etməliyik. Müəllimlər bütün tədris ili ərzində çox ciddi şəkildə fiziki və psixoloji cəhətdən çox ciddi şəkildə yüklənirlər. Həm şagirdlərlə işləmək, həm də ailənin maddi vəziyyəti onlara müəyyən qədər təsir göstərir. Bir çox hallarda şagirdlərini xoşbəxt böyüdən müəllimlərin özləri xoşbəxt olmurlar. Düşünürəm ki, ən ciddi məsələ müəllimlərimizin sosial müdafiəsini gücləndirməliyik. Hər il ən azı onlar 21 günlük istirahətə getməlidir. Bu gün Azərbaycan müəllimi sadəcə olaraq işləyir. O, tədris prosesində itirdiyi enerjini demək olar ki, bərpa etmir, bərpa edə bilmir. Bu faktor çox ciddi bir faktordur. Düşünürəm ki, intiharlar bizə siqnal verməlidir. Hər intihar edən müəllimin kollektivi ciddi şəkildə psixoloji sarsıntı yaşayır".

***Arzu Qurbanzadə***

ANALİTİK+ŞƏRH

## Rusiyalı ekspert: İrəvan özünəqəsd edir



Pavel Klaçkov: "Ermənistanda bir çoxlarının beyinlərində vacib olan dəyişikliklər baş verməyib"

**Son vaxtlar istər Azərbaycanda, istər Rusiyada, istərsə də Ermənistanda ən çox danışılan mövzulardan biri də Cənubi Qafqazda kommunikasiyaların açılması mümkünlüyü ilə bağlıdır. İndi hər kəsi bir sual düşündürür - bu nə qədər mümkün görünür? Əslində isə kommunikasiyaların açılması mümkün olardı, əlbəttə ki, əgər Ermənistan son 8 ayda cərəyan edən postmüharibə dövrünün tələblərini çək-çevirə salmasaydı.**

Halbuki 44 günlük müharibədə uğradığı ağır məğlubiyyətinə və məğlub tərəf kimi imzaladığı kapitulyasiya sənədinə baxmayaraq, Ermənistan rəhbərliyi hər vəchlə öz "şərtlərini" irəli sürür, əks halda sülh müqaviləsinə imza atmayacağını bəyan edir və onu da yaxşı bilir ki, məğlub tərəfin heç bir şərti olmur, şərti yalnız qaliblər müəyyən edir!

Artıq nə Rusiyanın, nə Azərbaycanın, nə də regiondakı digər oyunçuların Ermənistanın nazı ilə oynamağa nə həvəsləri bə də maraqları qalıb və səbr yenidən tükənə bilər

Bakı və Moskvanın Qarabağ münaqişəsinin həll olunduğunu bəyan etməsi, İrəvanın isə hələ də bu məsələyə köhnə nırxını qoymağa çalışması, sərsəm tələblərlə çıxış etməsi isə vəziyyətin hər an dəyişə biləcəyi ehtimallarını da artırır.

Artıq nə Rusiyanın, nə Azərbaycanın, nə də regiondakı digər oyunçuların Ermənistanın nazı ilə oynamağa nə həvəsləri bə də maraqları qalıb və səbr yenidən tükənə bilər. Yəqin ki, İrəvandakı Nikol Paşinyan hökumətinin təmsilçiləri bunu da yaxşı bilirlər və bildikləri halda hələ də prosesi uzatmaqla nə isə əldə edəcəklərini düşünürlər. Ancaq qatar çoxdan gedib və hətta tüstüsü də buludlara qarışıb...

SİA xəbər verir ki, mövzu ilə bağlı Rusiya Federasiyası hökuməti yanında Krasnoyarsk Maliyyə universitetinin direktoru, "İnkişaf komitəsi" ekspert klubunun rəhbəri, fəlsəfə elmləri namizədi Pavel Klaçkov caliber.az-a danışıb və o, bir neçə məqamlara maraqlı aydınlıq gətirib.

### "Azərbaycan rəhbərliyi Rusiya ilə münasibətlərini qurarkən birbaşa Ermənistana təsir edəcəyini anlayır"

Onun sözlərinə görə, sülh müqaviləsini imzalamaq əhəmiyyətlidir və buna doğru getmək vacibdir. Belə ki, sülh müqaviləsi olmadan situasiya asılı vəziyyətdə qalacaq.

SİTAT: "Müqaviləni indi imzalana biləcəyini demək çətindir. Həlledici rolu mənim düşüncəmdə Rusiya Federasiyası oynayacaq. Moskva Cənubi Qafqazda sabitliyin qarantı kimi çıxış edir. Bu yaxınlarda Ermənistanın Azərbaycana Zəngilan və Füzulidə 92 min minanın basdırıldığı ərazilərin xəritələrini verilməsini xatırlayın. Bu, Rusiya hərbi kontingenti komandanlığının iştirakı ilə baş verib. Daha böyük işlərə imza atmaq olar. Mən inanıram ki, Azərbaycan rəhbərliyi Rusiya ilə münasibətlərini qurarkən birbaşa Ermənistana təsir edəcəyini anlayır. Bununla yanaşı, hesab edirəm ki, regionda hər hansı əlavə oyunçuların mövcudluğu situasiyanı çətinləşdirə bilər. Diplomatik balansı saxlamaq mühümdür".

### "Azərbaycan modeli ölkənin öncüllüyünü, regiona və dünyaya təsirlərini təmin edəcək"

Pavel Klaçkov Azərbaycan tərəfinin Ermənistanla sülh müqaviləsini imzalamağa hazır olması bəyanatlarına qarşılıq olaraq Nikol Paşinyana yaxınlığı ilə seçilən deputat Ruben Rubinyanın Bakı ilə razılaşmaya getməyəcəkləri, xüsusilə Zəngəzur dəhlizinin açılmayacağı ilə bağlı bəyanatına özünəməxsus cavab verib.

SİTAT: "Qarabağ müharibəsinin nəticə göstəriciləri Azərbaycanın parlaq qələbəsi ilə başa çatdırılıb. Bu, yalnız o demək deyil ki, Ermənistan zəif idi. Bu, Azərbaycanın güclü olduğunu göstərir. Azərbaycanın gücü ondadır ki, inkişaf modelinin seçilməsi, daxili siyasət, hərbi quruculuq və xalqın hadisələrə psixoloji köklənməsi bir sıra faktorlarda qələbəni təmin etdi. Və biz eyni zamanda Ermənistandakı laxlamaları, başıpozuqluqları görürük, davamlı xaos, küçə etirazları.

Azərbaycan modeli ölkənin öncüllüyünü, regiona və dünyaya təsirlərini təmin edəcək. Azərbaycan yanaşması qərarların qəbulunun təmin olunması baxımından daha əhəmiyyətli olacaq".

### "Ermənistan modeli özünəqəsd, intihar xarakterindədir"

Klaçkov Ermənistan modeli barədə də danışaraq etiraf edib ki, bu ölkənin vəziyyətdən çıxa bilməməsi onu daha ağır vəziyyətə doğru sürükləyir və qarşısı alınmazsa, sonrakı taleyi böyük sual altına düşmüş olur. SİTAT: "Ermənistan modeli özünəqəsd, intihar xarakterindədir. Ermənistan tərəfi ardıcıl olmayan, qeyri-konstruktiv addımlar atır. Onlar anlaya bilmirlər ki, situasiya dəyişilib. Dəyişmək, sülhə öyrənmək, hər şeyi başqa cür qurmaq lazımdır. Belə çıxır ki, Ermənistanda bir çoxlarının beyinlərində vacib olan dəyişikliklər baş verməyib".

***Rövşən RƏSULOV***

# Əli Kərimli sosial şəbəkələrdə özünü rüsvay edir



**Mövcud reallıq və faktlar ondan ibarətdir ki, dağıdıcı müxalif düşərgənin fəaliyyəti bərbad duruma düşüb. Artıq partiyalararası düşmənçilik, funksionerlərin bir-birini gözdənsalma kampaniyası ağır nəticələrini verməkdədir. Yəni hazırda dağıdıcı düşərgədə bir növ başıpozuq vəziyyət hökm sürür.**

Bu da onu deməyə əsas verir ki, bu başıbəlalı dəstə yaxın vaxtlarda tarixin arxivinə atılacaq. Hələlik isə siyasətdə qaldıqlarını nümayiş etdirmək üçün çabalarını davam etdirirlər. Xüsusilə də, bu şəxslər sosial şəbəkələrə üz tutaraq burada öz siyasi varlıqlarını göstərməyə çalışırlar. Faktlar isə onu təsdiq edir ki, onlar sosial şəbəkələrdə də özlərini rüsvay edirlər. Baxmayaq ki, müxtəlif təxribat, qarayaxma üsulları ilə xalqı çaşdırmağa çalışırlar. Xüsusilə pandemiya dövründə yenidən fəallaşan bu şəxslər dövlətin gördüyü işlərə kölgə salmağa cəhdlər göstərirlər. Hətta 44 günlük Vətən müharibəsində qazanılan parlaq qələbəyə erməni maraqları prizmasından yanaşma nümayiş etdirirlər. Şər və böhtan vasitəsindən geninə-boluna yararlanmağa çalışan bu ünsürlər bəzən qazilərimizin gözdən qaçan, həlli uzanan məişət problemlərini qabardaraq ondan öz məqsədləri üçün istifadə etməyə çalışırlar. Ancaq əminliklə söyləmək olar ki, müxalif məxluqların tutduqları bu əməlləri fiaskoya uğrayacaq. Onlar yenə də gülünc vəziyyətlə üzləşməli olacaqlar. Ümumiyyətlə görünən odur ki, siyasi fəaliyyətləri dövründə dağıdıcı müxalifət heç bir halda Azərbaycanın maraq və mənafeyi üçün xoşməramlı addımlar atmayıb. Hər zaman xarici maraqlı dairələrin, anti-Azərbaycan mərkəzlərin yerlərdəki təzyiq qrupları funksiyasını yerinə yetirirlər. Ancaq xalq-iqtidar birliyinin möhkəm əsaslara malik olması onların arzularını, məkrli planlarını alt-üst edib.

## "Qazilərdən öz siyasi maraqları üçün istifadə etməyə çalışmaq cinayətdir"

Hazırkı məqamda çox həssas təbəqə hesab edilən şəhid ailələrindən, qazilərdən öz siyasi maraqları üçün istifadə etməyə çalışmaq cinayətdir. Hesab edirəm ki, bunu Azərbaycan hüquq-mühafizə orqanları gözdən qaçırmamalıdırlar. Ramil Vəlibəyov adlı sosial şəbəkə fəalı dağıdıcı müxalifətin qazilərimizin xırda problemini şişirdərək ondan siyasi divident əldə etməyə çalışmasına sərt münasibət bildirib. Sosial şəbəkə fəalı özünün feysbuk səhifəsində yazır ki, bütün cəmiyyətimiz, ilk növbədə oyuna gətirilən şəhid ailələri, qazilər bilməlidirlər ki, AXCP sədri Əli Kərimli, Müsavat Partiyasının başqanı Arif Hacılı, "Milli Şura"nın sədri Cəmil Həsənli, adları çəkilənlərin mirzələri olan Qənimət Zahid, Sevinc Osmanqızı məhz onların küreyindən, problemlərindən pul qazanırlar: "Azərbaycanda fərdi qaydada etiraz edən qaziyə münasibət necədir? Onlara kimsə əl qaldırıbmı? Yaxud, kobud formada cavab verilibmi? Xeyr. Belə hal ola da bilməz. Axı yalnız 44 günlük Vətən müharibəsində iştirak etmiş 160 min nəfərə yaxın hərbçiyə, qaziyə, veterana, şəhidlərin ailələrinə medal və ordenlər verildi, eyni zamanda, mənzillər, maşınlar, təqaüdlər təyin edildi, güzəştli iş yerləri, biznes qurmaq imkanları tanındı. Bir çox qazilərimiz Türkiyə, İsrail kimi ölkələrə müalicəyə göndərildi. 6 ay öncə gəzə bilməyən qazilərə müasir protezlər verildi və artıq onlar ayaq üstədirlər. Yəni, deməyim odur ki, dövlət qaziləri, şəhid ailələrini hər zaman diqqətdə saxlayır və bundan sonra da belə olacaq. Sadəcə, səbr etmək lazımdır. İmkan verilməməlidir ki, qazilər, şəhid ailələri dövlətlə üz-üzə qoyulsun. Bundan zərər çəkən ancaq cəmiyyətimiz, qazanan isə Əli Kərimli və ona pul verən düşmənlərimiz olacaq. Bu barədə düşünən elə ilk növbədə qazilərimiz, şəhid ailələri olmalıdır".




## "Təki, qrant, ianə qazansınlar"

Sosial şəbəkə fəalı qazilərimizi Ə.Kərimli, C.Həsənli, A.Hacılı kimi məxluqların siyasi oyunlarının alətinə çevrilməməyə çağırır: "Problemlərinin həlli onsuz da dövlətimizin prioritetidir və həll ediləcəkdir. Heç kəsin bundan şübhəsi olmasın. Amma kimlərinsə "like" və "baxış" toplama alətinə çevrilmələrinə icazə verməsinlər. Sual etsinlər ki, ailəsinə ABŞ-da, Britaniyada bahalı həyat yaşadan Əli Kərimli, özünə 60 minlik maşın alan Tofiq Yaqublu kimilər bu günə qədər hansı qaziyə, şəhid ailəsinə maddi dəstək göstəriblər? Yaxud, Oqtay Güləliyevin marafonuna 500 manat yazdıran Əli Kərimli, Arif Hacılı hansı qazinin bir probleminin həllinə 50 manat köməklik ediblər? Çətin ki, qazilərimiz erməni lobbisinin sifarişini yerinə yetirən Əli Kərimli kimilərdən bu suallara cavab alsınlar. Səbəb də odur ki, Əli Kərimli kimilər o qədər azğındırlar ki, məqsədləri üçün, hətta qaziləri, şəhid ailərini də təhqir edərlər. Təki, qrant, ianə qazansınlar".

Göründüyü kimi ayının min oyunu bir armudun üstündə olduğu kimi, müxalif ünsürlərin, xüsusilə də AXCP sədri Ə.Kərimlinin siyasi şoularının mərkəzində də xarici fondların sifarişlərini yerinə yetirmək və bununla da maliyyə imkanları qazanmaq dayanır. Bəzən qrant əldə etmək üçün Ə.Kərimli öz əqidə dostlarını, partiya üzvlərini də satışa çıxarır. Xatırlatmaq lazımdır ki, AXCP üzvlərinin məhkəmə prosesində şahidlərin dediklərindən bəlli olmuşdur ki, AXCP-nin üzvü Vidadi Rüstəmli və partiyanın nəzarət-təftiş komissiyasının üzvü Təzəxan Mirələmli Heydər Əhmədovdan, Ceyhun Hüseynovdan, Rauf İsgəndərovdan, Elturan Rüstəmlidən və başqalarından müxtəlif vaxtlarda Əli Kərimlinin şəxsi tələbatlarının qarşılanması üçün Rusiyadan göndərilmiş, ümumilikdə 87 min dollar pul və onun sosial şəbəkələrdə canlı yayımlarının keyfiyyətli aparılması üçün kamera, mikrofon alıblar. Yəni əsas iş qrant qazanmaq olub. Ancaq Ə.Kərimli ifşa olundu. Sadəcə, özü bataqlığın içində idi, sadəlövh insanları da özünə yoldaş etməklə, onların həyatlarını alt-üst etdi. Yəqin ki, bu cür siyasi fəaliyyət uzun çəkməyəcək. Bir gün Ə.Kərimli özü etdiyi pisliklərin cəzasını yaşamalı olacaq.

***İ.ƏLİYEV***

# Vardana müəllimdən başqa nə deyirsiniz deyin...

**Deyəsən, bunların yenidən qanı çalxalanır... Məgər mən demirdim ki, Robert Koçaryan elə-belə ermənilərdən deyil, yəni o, "...arxalı köpək..." prinsipini əsas tutub "dinc dayanmayacaq". Odur ey, erməni MSK-nın erkən parlament seçkilərindəki nəticələrinin saxtakarlığı ilə bağlı konstitusiya məhkəməsinə şikayətçi düşüb. Hətta, utanmadan "Hayastan" blokunun qalib olduğunu da iddia edir. Budur, Robert artıq özünə Vardan Ayvazyan adlı təcrübəli bir "hüquq müəllimi" də qoşub. O da Koçaryana "qahmar çıxmaq" üçün özünü "oda-közə" vurur.**



Amma, insafla desək, "savadlı erməniyə" oxşayır. Belə ki, bunu onun Koçaryana verdiyi tövsiyələrdə də sezmək olar.

Məsələn, Roberti şikayətçi düşməkdə "haqlı bilən" Vardan Ayvazyan onu başa salmağa çalışır ki, bizim konstitusiya məhkəməmiz sənin şikayətinlə bağlı iki qərar qəbul edə bilər: birincisi - seçki nəticələrini etibarsız hesab edə bilər, ikincisi - nəticələri olduğu kimi buraxar. Vardana görə, nəticələri etibarsız hesab etmək üçün Robert seçki saxtakarlığının nəticələrini sübut etməlidir.

Əslində, indiki Ermənistan şəraitində məncə bu Robert üçün elə də "böyük bir" problem yaratmamalıdır (?). Bəlkə də, Robert "təkan verib" Nikolun 53.9 faiz səslə deyil, daha az səslə qalib gəldiyini "sübut etsə", deməli, Paşinyanın "küməsi batacaq". Yəni bu halda konstitusiya məhkəməsi seçkiləri etibarsız elan edəcək.

Hə...Deməli, ölkə artıq yeni seçkilər keçirməli olacaq... yəni yenidən təbliğat aparılacaq və eyni partiyalar yenidən seçkilərə qatılacaq. Təbii ki, Robertə ümid verən Vardana görə, bu dəfə "Hayastan"ın qalib gələcəyi şəksizdir.

Hələ bu harasıdır... Vardan "qalib" Robertə öz məsləhətlərini verərək deyir ki, sən hakimiyyətə gələndən sonra, lap bəd ayaqda Ermənistan Azərbaycanla sülh müqaviləsi imzalamağa da razılıq verə bilər. Amma bir şərtlə, yəni Ermənistan "Artsax" olmadan Azərbaycanın ərazi bütövlüyünü tanıya bilər (?).

Erməni düşüncəsinə görə, "Artsaxı" Azərbaycanın bir hissəsi kimi tanımağın qanuni əsası yoxdur. Çünki, "Artsax" heç vaxt Azərbaycanın bir hissəsi olmayıb (?).

Maraqlıdır, görən, Vardan öz dediklərinə inanır, yoxsa, Robert kimi ermənilərin yanında özünü "şirin" salmağa çalışır?

Amma o da maraqlıdır ki, erməni "müəllim" bu məsələdə bütün qanunların Azərbaycan tərəfində olduğunu etiraf etməklə, erməni səlahiyyətlilərinin "vicdan və ləyaqətə" sahib olaraq bunun üzərində işləyəcəklərinə ümid etmədiyini bildirir.

...Deyəsən mən, sonda dedikləri ilə özünü elə indidən sığorta etdirməyə çalışan Vardana "savadlı erməni müəllimi" demək istəmişdim. Xahiş edirəm özünü "ali məktəb müəllim" kimi təqdim edən Vardana müəllimdən başqa nə deyirsiniz deyin...

***Ağasəf Babayev***

# "Yıxıl, adın çıxsın"



"Hər bir siyasi qüvvə mitinq keçirməyin lazım olub-olmadığını özü müəyyən edir. Əlbəttə, bu gün Azərbaycanda hər hansı mitinq keçirməyin bir mənası yoxdur. Əminliklə deyə bilərəm ki, keçirilməsi nəzərdə tutulan mitinq də alınmayacaq". Bu fikirləri SİA-ya açıqlamasında siyasi şərhçi Araz Əlizadə deyib. Ekspertin sözlərinə görə, sosial şəbəkələrdə canfəşanlıq edən bir qrupun çağırışına kimlərinsə gələcəyi real görünmür: "Bütün bunlara baxmayaraq bu çağırışlara davam etməklə onlar demək istəyir ki, yəni, biz də varıq. Lakin cəmiyyət bir daha sübut edəcək ki, onlar yoxdur".

A.Əlizadə vurğulayıb ki, bilirsiniz, uşaq vaxtı uşaqlar öz aralarında futbol oynayarkən futbol oynaya bilməyəni qoyurdular qapıya və deyirdilər "Yıxıl, adın çıxsın". "Əslində, bu yaşanan da eyni situasiyadır. Azərbaycanı gözü götürməyən qüvvələr çoxdur, xüsusən də xaricdə. Bu insanlar da həmin dairələrin dəyirmanına su tökmək istəyirlər, lakin suları yoxdur".

***Aysel Məmmədova***

# İnternetdəki müalicə və diaqnozlara inanmaq olarmı?

*Həkim maraqlı faktlardan danışdı*



**"İnternetdə özünə diaqnoz qoyan insanlar özlərini psixoloji cəhətdən qorxudurlar. Bu müasir insanların yeni xəstəliyi kiberxondriya adlanır". Bu sözləri SİA-ya açıqlamasında həkim-pediatr Ülkər Quliyeva deyib.**

Onun sözlərinə görə, bəzi səhiyyə işçiləri bu cür insanları diaqnoz fenomeni kimi adlandırırlar: "Belə insanlar özlərində müxtəlif simptomlar axtarışında olaraq vaxtının çox hissəsini internetdə keçirirlər. Onlar özləri üçün diaqnoz qoyurlar. Belə insanlar hər hansı bir xəstəlik haqqında heç bir məlumat toplamadıqda həyəcanları daha da artır. Araşdırmalara görə, bu təkcə depressiyaya meyilli olan insanlarda deyil, həmçinin sağlam insanlar da internet vasitəsilə özlərində qeyri-mövcud olan xəstəlikləri axtarmağa başlayırlar və diaqnoz qoyurlar".

Həkim-pediatr həmçinin qeyd edib ki, kiberxondriya öz-özünə diaqnoz qoyan insanlar patologiyanın simptomlarını internet vasitəsilə oxuyur, onların təsiri altına düşür və bu xəstəliklərdən birinə sahib olduqlarını düşünürlər. Həmin insanlar internetdə oxuduqlarına əsasən özlərini müalicə edirlər. Bu da ciddi nəticələrə səbəb ola bilər. Çünki hər bir diaqnoz bir həkim tərəfindən təyin olunmalıdır. Düzdür, internet yaxşı məlumat mənbəyi olsa da, hər şey üçün istifadə etmək düzgün deyil".

***Arzu Qurbanzadə***

# Dava yorğan davasıdır? - Mediamızdakı reallıq

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**II YAZI**

## MEDİA-nın mediaya yardımlarından kimlər və niyə narahat olur?

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İctimai və dövlət maraqlarının müdafiəsi" istiqaməti çərçivəsində hazırlanıb.*

Ötən yazımızda media sahəsindəki vəziyyətə və indiyə qədər mövcud olmuş problemlərə toxunmuşuq. İndi isə bu məkanda baş verən yeniliklərə, görülən işlərə və həllini gözləyən problemlərə toxunacağıq.

### Mediaya dövlət yardımından narazı qalanlar

Medianın İnkişafı Agentliyi (MEDİA) çap mediası və onlayn media subyektlərinin inkişafı, iqtisadi müstəqilliyinin gücləndirilməsi, fəaliyyətinin təkmilləşdirilməsi, habelə dövlət və cəmiyyət üçün əhəmiyyət kəsb edən layihələrin həyata keçirilməsi məqsədilə təşkil edilən müsabiqənin qalibləri açıqlandıqdan sonra müsabiqədən keçə bilməyən qəzet və saytların rəhbərləri sosial şəbəkələrdə etirazlarını bildirib.

Lakin bu şikayətlərin, etirazların əsassız olduğu məlumdur. Çünki əvvəla, müsabiqənin şərtləri, tələbləri əvvəlcədən elan olunub və bu şərtlərə və tələblərə daha çox cavab verənlər qalib olub. Qiymətləndirməni də ekspertlər bu meyarlar əsasında aparıb.

İkincisi, ölkədə minlərlə sayt, qəzet olduğu halda, bunların hamısı maliyyələşdirilməli deyil. Dünyanın heç bir ölkəsində belə təcrübə yoxdur. Dövlət medianın inkişafı üçün bəzi yardımlar ayıra bilər və müvafiq instansiya da bu yardımları da kimə gəldi paylamalı deyil. Media tərifinə, jurnalistika tələblərinə uyğun gələnlərə verilməlidir. Yoxsa, ölkədə on minlərlə sayt açılıb, indi hamı desin ki, mən mediayam, mənə pul verilməlidir- bu, düzgün deyil. Tələbin məqsədi medianın inkişafı deyil, şəxsən özlərinin əldə edəcəyi gəlirdir.

Üçüncüsü, bu yardımlar bir dəfəylə başa çatmayacaq. Mərhələli şəkildə elan olunmuş şərtlər və tələblərə cavab verən media orqanları maddi yardımla təmin olunacaq. Nəticədə həqiqi mətbu vasitələrin hamısına yardım olunacaq. Ona görə də, müftə pul uğrunda hay-həşir salmaqdansa, həqiqi media tələblərinə uyğun fəaliyyət göstərmək lazımdır.

MEDİA elan edib ki, müsabiqələr gələcəkdə də davam etdiriləcək, növbəti aylar ərzində fəaliyyətini müəyyən edilmiş qaydalara uyğunlaşdıran veb-saytlar yenidən həmin müsabiqələrdə iştirak edə biləcək, qiymətləndirmə meyarlarına cavab verdikdə və daha yüksək göstəricilər nümayiş etdirdikdə isə qalib olmaq imkanı qazanacaqlar.

Bəs əsas tələblər nədən ibarət idi? Əmək şəraiti və redaksiya heyətinin minimum tələblərə cavab verməsi, onlayn media subyektlərinin gün ərzində ən azı 20 kütləvi informasiya dərc etməsi əsas götürülüb, çap mediası subyektlərinin tiraj və yayıma dair normalar müəyyənləşdirilib.

Qiymətləndirmə zamanı media subyektlərinin oxunaqlılıq dərəcəsini müəyyən edən ümumi səhifə baxışı sıralaması, materialların orijinallığı, informativliyi, analitik xarakteri, mövzuların jurnalistikanın ümumi prinsiplərinə uyğunluğu, mətnlərin üslubi keyfiyyətləri, dilin norma və qaydalarına əməl olunması, saxta və aldadıcı başlıqlı xəbərlərin, plagiat materialların həcmi, dizaynın müasir standartlara uyğunluğu, sosial şəbəkə hesablarının aktivliyi kimi meyarlar nəzərə alınıb.

Xüsusən narazılıq edənlər internet saytlardır ki, onların da əhəmiyyətli bir hissəsinə yardım ayrılıb. Onlayn media subyektləri üçün təşkil edilmiş müsabiqəyə ümumilikdə 96 veb-sayt müraciət edib, mövcud maddi imkanlar nəzərə alınmaqla müsabiqə qaydalarına cavab verən 39 veb-sayt qalib elan olunub. Bu, az qala, müraciət edənlərin yarıya yaxınını təşkil edir. Qalan hissə növbəti dəfələrdə tələblərə cavab verərsə, yardım alacaqlar.



ANALİZ

### Mediamız hansı kriteriyalarla işləyir?

Məlum olduğu kimi, müasir jurnalistikanın əsas problemlərindən biri operativlik və obyektivlik arasında seçim etmə üsuludur. Əsl jurnalistlər hər hansı informasiya daxil olduqda onu tam dəqiqləşdirməmiş, tərəflərin və ekspertlərin fikrini öyrənməmiş və konkret fakt əldə etməmiş yazı yazmırlar və operativliyi obyektivliyə qurban verməkdən çəkinmirlər. Çünki düzgünlüyü aydınlaşdırılmamış operativ məlumatdansa, obyektivliyi təsdiq olunmuş gecikmiş informasiya daha üstündür.

Qeyri-peşəkarlar isə, hətta şayiələri, dezonformasiyaları və sifarişli şantajları belə ucuz sensasiya xatirinə tələsik yayımlamaqla məşğuldurlar. Nədən ki, bu "jurnalistlər" müasir jurnalistika texnologiyaları haqda təlim və ya təcrübə keçməyiblər, ona görə də informasiyanın necə alınması, hansı mənbələrdən təsdiqlənməsi, faktların hansı yolla əldə edilməsi, tərəflərin mövqelərinin necə verilməsi, ekspert fikrinin alınması, öz şəxsi fikrini oxucuya yeritməmək və s. bu kimi jurnalistika prinsiplərindən xəbərsizdirlər.

Ona görə də, bu saytlarda dərc olunan yazıların faktoloji yükü az olur, jurnalist neytrallığı kənara qoyulur, obyektivlik isə hiss olunmur. Əksinə, yazının elə ilk cümlələrindən qərəzlilik, subyektivlik və fakta əsaslanmamaq hiss olunur.

Çap mətbuatında, nüfuzlu agentliklərdə, xəbər portallarında intellektual və peşəkar jurnalistlər az deyil. Amma, təəssüf ki, bir çox hallarda bu peşəkarların yazdıqları ciddi məqalələr, təhlillər və araşdırmalar "küçə saytlarının" şişirdilmiş, saxta və hay-küylü materiallarının kölgəsində qalır. Çünki oxucuların çoxu ciddi yazıları oxumaqdansa, şou, qalmaqal axtarır. Bu saytlar da da sırf kütləyə hesablanmış dezinformasiyalar, şişirdilmiş materiallar hazırlayıb yayır və bununla həm İP, həm də pul qazanırlar.

Bir çox hallarda sifarişçilər, həmin saytlara, jurnalistlərə şantaj xarakterli yazılar sifariş edirlər. Yaxşı pul müqabilində vicdanlarını arxa plana keçirən "peşəkarlar" qaraya ağ, ağa qara deməkdən çəkinmirlər. Çünki məsuliyyətə cəlb ediləməyəcəklərinə əmindirlər. Nəticədə, media, jurnalistika cəmiyyətdə nüfuzunu itirir.

Bu səbəbdən də, MEDİA bu sahədə vəziyyəti düzəltmək üçün işlər görür, müxtəlif tədbirlər, layihələr həyata keçirir, müvafiq qanunvericiliyin təkmilləşdirilməsi üçün təkliflər hazırlayır. Ən əsası, ciddi medianı dəstəkləyir ki, onlar saxta medianın kölgəsində qalmasınlar.

Jurnalistlərin sosial vəziyyəti yaxşılaşacaq?

Azərbaycanda son 30 ildə jurnalistlərin sosial vəziyyətinin ağır olması, çətin şəraitdə yaşaması və çalışması heç kimə sir deyil. Sovet dövründə televiziya və mətbuat işçiləri əhalinin yüksək təbəqəsini təşkil edirdilər və sosial təminat cəhətdən əksər qruplara nisbətən üstün mövqedə idilər. Lakin sonralı dövrdə vəziyyət tamamilə bunun əksinədir.

İndi jurnalistlərin sosial vəziyyəti, əməkhaqları ürəkaçan deyil. Bu sahədə çalışanların 80 faizindən çoxunun şəxsi mənzili yoxdur, onsuz da aşağı olan əməkhaqqının yarısı kirayə haqqına sərf olunur. Başqa ölkələrlə müqayisədə Azərbaycan jurnalistləri 5-10 dəfə aşağı maaş alırlar.

Misal üçün, qonşu ölkələrdə-Rusiya, Türkiyə və İranda eyni işi görən jurnalistlər azərbaycanlı həmkarlarından azı 3-5 dəfə yüksək maaş alırlar və bəzi güzəştlərdən də istifadə edirlər. Hətta iqtisadi imkanlar cəhətdən Azərbaycandan 4-5 dəfə zəif olan Gürcüstanda belə media mənsublarının maaşları bizdən 2 dəfə yüksəkdir.

Başqa sözlə, jurnalistləri ölkənin kasıb təbəqəsinə aid etmək olar. Azərbaycanda yaşayış minimumunun 200 manatın üzərində olmasını nəzərə alsaq, ortalama 300-500 manat əməkhaqqı alan jurnalistin ailəsində kirayə xərcini çıxdıqdan sonra adambaşına bu məbləğdən xeyli aşağı vəsait düşdüyünü aydın görmək olar. Belə bir ağır vəziyyətdə yaşayan, problemlərdən başı açılmayan insandan hansı iş keyfiyyəti, hansı peşəkarlıq, hansı iş həvəsi gözləmək olar?

İş o yerə çatıb ki, banklar və mağazalar jurnalistlərə, hətta az məbləğli pul krediti və ya ucuz məişət əşyalarını belə kreditlə verməkdən imtina edirlər.

Son 10 ildə jurnalistlərin sosial vəziyyətinin yaxşılaşdırılması üçün müəyyən tədbirlər görülüb. Bakıda jurnalistlər üçün ümumilikdə 665 mənzillik 3 böyük yaşayış binası tikilib. Onlardan 2-si (410 mənzil) paylanıb, digər 255 mənzillik bina isə hazırdır və tezliklə qələm əlinə veriləcək.

Əməkhaqqı məsələsinə gəldikdə burada vəziyyət dəyişməzdir. Son 10 ildə dəfələrlə devalvasiya, inflyasiya getsə də, qiymətlər 2-3 dəfə artsa da, jurnalistlərin maaşı yerindən tərpənmir.

MEDİA nələr edir və nələr edəcək?

Bütün bu problemlərə baxmayaraq, son vaxtlar Medianın İnkişafı Agentliyinin fəaliyyətinin mətbuatın inkişafına böyük təkan verdiyi göz qabağındadır. MEDİA həm mediamızın peşəkarlığının artması, həm də jurnalistlərin sosial vəziyyətinin yaxşılaşdırılması üçün çalışır. Məsələn, redaksiyalara öz əməkdaşlarına ən azı orta əməkhaqqı məbləğində maaş verməyi tövsiyyə edir (bu şərt yardım layihələrində iştirak zamanı nəzərə alınır). Bundan başqa, mütamadi olaraq jurnalistlər arasında yazı müsabiqələri keçirir və hər il bu müsabiqələrdə qalib olan yüzlərlə jurnalist buradan normal maliyyə vəsaiti əldə edir.

Bundan başqa, mətbuatda yazı layihələri üçün pul ayırır və redaksiyalar təqdim etdikləri layihə üzrə 6 ay müddətində həmin mövzuda yazılar hazırlamaqla 20 min manatadək maliyyə alırlar ki, bu da həm həmin mətbu orqanın maddi-texniki bazasının güclənməsinə, həm də jurnalistlərin maaşlarına müəyyən təsir göstərir.

Daha bir problem isə, redaksiyaların işçiləri rəsmi əmək müqaviləsi ilə işlətməməsidir. Əksəriyyəti ictimai əsaslarla çalışmış sayılır, yəni onların əməkhaqqından vergilər və sosial müdafiə fonduna ödənişlər də edilmir ki, bu da o deməkdir ki, onlar gələcəkdə pensiya ala bilməyəcəklər. Yəni, rəsmi olaraq işsizdirlər və bu halda bir çox hüquqlarından bəhrələnə bilmirlər (məsələn bankdan kredit götürə bilmirlər).

Göründüyü kimi, əldə olunan nailiyyətlərlə yanaşı, həllini gözələyən problemlər də var. MEDİA bu məsələlərin də həllinə çalışır və artıq müəyyən addımlar atıb. Şübhə yoxdur ki, bu sahədə mövcuid problemlərin tezliklə aradan qaldırılması mümkün olacaq. Çünki bunun üçün həm dövlət başçısı səviyyəsində siyasi iradə var, həm yeni yaradılmış və peşəkarları işə cəlb etmiş MEDİA-mız var.

***Elçin Bayramlı***

# SƏS!

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

7 iyul

QARABAĞ AZƏRBAYCANDIR!


## Braziliya finalda

**Futbol üzrə Amerika Kubokunun yarımfinal mərhələsi çərçivəsində Braziliya və Peru yığmaları qarşılaşıb. SİA-nın məlumatına görə, oyun Braziliya millisinin minimal hesablı qələbəsi ilə yekunlaşıb - 1:0. Oyunda yeganə qolu 35-ci dəqiqədə Lukas Paketa vurub.**

Qeyd edək ki, finalda braziliyalılar Argentina-Kolumbiya yarımfinalının qalibi ilə qarşılaşacaqlar. Final oyunun oyulu 11-i baş tutacaq. İyulun 10-da isə Argentina-Kolumbiya oyununda məğlub olan tərəf üçüncü yer uğrunda perulularla oynacaq.



## "Fulhem" "Fənərbaxça"nın gənc ulduzunu transfer edir

Bu mövsüm İngiltərə Premyer Liqasından aşağı liqaya düşən "Fulhem" transfer işlərinə davam edir. SİA-nın xarici mətbuata istinadən verdiyi məlumata görə, klub "Fənərbaxça"nın ulduz futbolçusu Bright Osay-Samuelin transferi üçün cəhdlərə başlayıb. Daha əvvəl "Fənərbaxça"nın gündəmində olan baş məşqçi Marko Silva müqavilə bağlayan ingilis komandası yeni mövsümə transfer işlərini davam etdirir. Qara-Ağ komandanın sükanı arxasına keçən Marko Silvanın da transfer siyahısını rəhbərliyə təqdim etdiyi ifadə edilib.



*Ziya Hikmətoğlu*

## Yasamalda qadına qarşı soyğunçuluq edən şəxs tutulub

Yasamal Rayon Polis İdarəsinin 28-ci polis bölməsinə iyulun 2-də Bakı şəhər sakini S.Yolçuyevanın içərisində 340 manat, 10 avro, 100 ABŞ dolları məbləğində pul, sənəd və təqaüd kartı olan pulqabısının soyğunçuluq yolu talanması barədə məlumat verilib. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, soyğunçuluq əməlini törətməkdə şübhəli bilinən Bakı şəhər sakini, əvvəllər məhkum olunmuş F.Əliyev polis əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində müəyyən edilərək saxlanılıb. Faktla bağlı təhqiqat aparılır.



## Təyyarə sirli şəkildə yoxa çıxdı

**Rusiya Federal Hava Nəqliyyat Agentliyi "Rosaviasiya" Kamçatkada uçuş vaxtı əlaqəsini itirən An-26 sərnişin təyyarəsinin qalıqlarının müəyyən edildiyini açıqlayıb. SİA xəbər verir ki, təyyarədəki 28 nəfərdən heç birinin sağ qalmadığı bildirilib. "Rosaviasiya" rəsmiləri 28 nəfərlik sərnişin təyyarəsinin dəniz sahilinin yaxınlığında, Palana şəhərindəki hava limanının eniş zolağından 4-5 kilometr məsafədə olduğunu bildirilib.**

"RİA Novosti" xəbər agentliyinə sərnişin təyyarəsinin məxsus olduğu "Kamchatsky Hava Şirkəti"nin direktor müavini verdiyi açıqlamada bildirib ki, təyyarənin qəzaya uğramasının səbəbi güclü külək olub: "Ehtimal ki, sahil qayalarına çırpılıb və dağıntıların bir hissəsi dənizə düşüb". Rusiyanın şərqindəki Kamçatka yarımadasındakı Petropavlovsk-Kamchatskiy şəhərindən havaya qalxan sərnişin təyyarəsi ilə ünsiyyətin Palana şəhərinə çatmağına 10 dəqiqə qalmış əlaqənin kəsildiyi bildirilir. Qeyd edək ki, 22 sərnişin və 8 heyət üzvü ilə təyyarənin qəzaya uğramasının səbəbi dəqiq deyil. Təyyarə üçün axtarış işləri həm dənizdə, həm də quruda davam edir.

*Qönçə Quliyeva*





## Bu ölkədə qan ehtiyatları tükənib!

Latviyada qan tədarükü ilə əlaqədar kritik bir vəziyyət meydana gəlib. SİA xəbər verir ki, bu barədə ölkənin qan ehtiyatları mərkəzinin məlumatında deyilir. Məlumatda qeyd olunur ki, çatışmazlıq səbəbindən ölkədə hətta tibbi əməliyyatlar belə ləğv olunmağa başlanıla bilər. "Hörmətli donorlar. Vəziyyət kritikdir. Qan ehtiyatları tezliklə doldurulmasa, təchiz edilməsə, xəstəxanalar əməliyyatları ləğv etməli olacaqlar", deyə mərkəz çərşənbə axşamı Twitter-də qeyd edib. Mərkəz Latviya vətəndaşlarını hər qrup üzrə qan verməyə çağırır.

*İnam Hacıyev*

## Göz üçün faydalı qidalar

Gözləri qorumaq üçün həm gigiyenik qaydalara, həm də qida rasionuna riayət etmək lazımdır. Orqanizmin sağlamlığı həm də düzgün qidalanmadan asılıdır. Görmə qabiliyyətinə müsbət təsir edən əsasən antioksidantlar, C vitamini, Omeqa-3-lə zəngin olan qidalardır.



Respublika Neyrocərrahiyyə Xəstəxanasının həkim-oftalmoloqu Gültəkin Məmmədova AZƏRTAC-a deyib: "Həftədə bir dəfə dəniz məhsulları və balıq yemək tövsiyə olunur. Cevizlərin tərkibində Omeqa-3 çoxluq təşkil edir. Gündə beş-altı ədəd qoz, fındıq, badam, püstə yemək də göz sağlamlığı üçün çox faydalıdır. Çiy və ya yüngül bişmiş halda kök, beta-karotinlə zəngin olan qarğıdalı kimi məhsullar da gözün qidalanmasında mühüm rol oynayır. Çoxlu su içmək və gigiyena qaydalarına əməl edilməsi də vacib məsələdir".

Göz xəstəliyindən əziyyət çəkənlər də qida rejiminə diqqət yetirməlidirlər: "Hər hansı göz xəstəliyi varsa, qida əlavəsi deyilən vitamin kompleksi qəbul olunmalıdır. Məsələn, yaşla əlaqədar olaraq distrofiyanın müalicəsində lütein çatışmazlığı olur və bu zaman lütein tərkibli preparatlar təyin olunur",- deyə həkim-oftalmoloq bildirib.

Qeyri-sağlam qidalanma gözlərin fəaliyyətinə mənfi təsir edir. Ona görə də hər zaman faydalı ərzaqlara üstünlük vermək məsləhətdir.


**Baş redaktor:**
**Bəhruz Quliyev**
**Baş redaktorun müavinləri:**
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in kompüter mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**